www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18-20 oktyabr 2025-ci il Şənbə № 189 (8799) Qiyməti 60 qəpik

**Xəbər**

## Müstəqilliyimizin bərpasından 34 il ötür

yazısı səh.4-də

**Gündəm**

### Prezidentdən mühüm anons - "Makronla görüşdən sonra..."



Bakı ilə Yelisey sarayı arasında münasibətlərdə yeni mərhələ başlanır

yazısı səh.9-da

### Qəzza sammitində Araik söhbəti - Bakıdan sərt cavab

yazısı səh.8-də

### MDB ölkələrinə rus dili tələbi - Moskvadan qəribə davranış

yazısı səh.6-da

### Parlamentdə Ramiz Mehdiyev müzakirəsi

yazısı səh.10-da

### Azərbaycan bu ölkəyə ordu göndərir - Türkiyə isə...

yazısı səh.7-də

### "Georgi lentli" Səmədovun maddəsi ağırlaşır

yazısı səh.11-də

### "Türk axını"na qarşı "Hörümçək əməliyyatı"?

yazısı səh.6-da

### Araz dəhlizi işə düşür, Zəngəzur dəhlizi isə... - Yeni gəlişmə

yazısı səh.11-də

### Trampdan Putinə son xəbərdarlıq - Ukrayna tək qalib ola bilər?

yazısı səh.14-də

### İki ölkə rus neftindən imtina edir - Azərbaycana təsiri

yazısı səh.15-də

### Zənginlik çoxuşaqlı ailə olmağa əngəldir iddiası - Sosioloqun şərhi

yazısı səh.13-də

# MEHDİYEVİN XƏYANƏT DOSYESİNİN YENİ DETALLARI - GİZLİNLƏR AÇILIR

Sabiq PA rəhbəri 7 saat dindirildi; "boz kardinal"ın Təhlükəsizlik Şurasından və partiyadan çıxarılması an məsələsidir - açıqlama



yazısı səh.5-də

## Azərbaycanda daşıyıcı ana "ovu" - Gənc xanımlar Gürcüstana niyə aparılır?

Ölkədə mütəşəkkil dəstə qadınları surroqat analıq yolu ilə pul qazanmağa şirnikləndirir; **ekspertlərdən SOS:** "İnsan orqan və toxumalarının qanunsuz alqı-satqısı..."

yazısı səh.3-də



*Zahid Oruc:*

### "23 erməninİ tələb edənlər buna cavab versin"

yazısı səh.4-də



Musa Qasımlı

*Deputat:*

### "Pensiya yaşının azaldılmasına ehtiyac yoxdur"

yazısı səh.13-də



*Fazil Mustafa:*

### "Bu, ailə institutu üçün faciəvi problemdir"

yazısı səh.3-də



## 2029-a qədər əhali qazandıqca xərcləyəcək - Rəsmi

**2025-ci ildə orta illik inflyasiyanın 5,4 faiz, 2029-cu ildə isə 4,2 faiz olacağı proqnozlaşdırılır. Maliyyə Nazirliyinin “2026-2029-cu illər üzrə Ortamüddətli Xərclər Çərçivəsi”ndə məlumat verilib.**

Məlumata görə, 2025-ci ildə əhalinin gəlirləri 89,9 milyard manat, xərcləri isə 88,1 milyard manat səviyyəsində olacaq. 2026-cı ildə gəlirlər 97,4 milyard manata, xərclər isə 95,5 milyard manata yüksələcək.

Növbəti il - 2027-ci ildə gəlirlər 105,3 milyard, xərclər isə 103,3 milyard manat səviyyəsində proqnozlaşdırılır. 2028-ci ildə isə bu rəqəmlər müvafiq olaraq 113,4 milyard və 111,2 milyard manat olacaq.

2029-cu ildə isə əhalinin gəlirləri 123,2 milyard manata, xərcləri isə 120,6 milyard manata çatacaq.

Qeyd edək ki, gəlirlərin artması müsbət hal olsa da, xərclərin də eyni templə yüksəlməsi əhalinin rifah səviyyəsinə mənfi təsir göstərə bilər.

Məlumat üçün bildirək ki, bu proqnozlar dünya bazarlarında əmtəə, xüsusən də ərzaq qiymətlərinin nisbətən aşağı düşməsi və bunun idxal qiymətlərinə təsiri, nominal effektiv məzənnə indeksinin dinamikası, məzənnənin sabit qalacağı ilə bağlı fərziyyələr, eləcə də tənzimlənən mal və xidmətlərin tariflərindəki dəyişikliklər nəzərə alınaraq hazırlanıb.




## Xaricdəki blogerlərin məhkəməsi başladı

**Xaricdə yaşayan blogerlər Tural Sadıqlı, Elşad Məmmədov, Qurban Məmmədov və Süleyman Süleymanlının barələrində olan cinayət işi üzrə məhkəmə başlayıb. APA-nın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Vüqar Quliyevin sədrliyi ilə məhkəmənin hazırlıq iclası keçirilib.**

Proseslərdə anket məlumatları dəqiqləşdirilib. Hazırlıq iclası oktyabrın 24-də davam etdiriləcək.

Qeyd edək ki, təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 178.3.1-ci (dələduzluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə), 214-2,-ci ( Terrorçuluğa açıq çağırışlar), 220.2-ci (Kütləvi iğtişaş, Hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə), 281.2-ci ( Silahlı qiyam, Eyni əməllər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə), 320.1 -ci (Rəsmi sənədi saxtalaşdırma) maddələri ilə ittiham olunurlar. Onlar ölkə xaricində olduqlarına görə barələrində məhkəmə qərarı ilə qiyabi həbs qətimkan tədbiri seçilib.

## 79 əcnəbi narkotiklə bağlı tutulub

**Bu ilin yanvar-sentyabr ayları ərzində narkotiklə bağlı məsuliyyətə cəlb edilmiş 79 xarici ölkə vətəndaşından ümumilikdə 936 kq 421,475 qr müxtəlif növ narkotik vasitə və psixotrop maddə və 271,772 qr çətənə bitkisi götürülüb.**

APA xəbər verir ki, bu barədə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun məlumatında deyilir.

Qeyd olunub ki, hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 193 fakt aşkar edilib. Həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 2 ton 768 kq 922,273 qr və 7527 həb metadon narkotik vasitə və psixotrop maddə, 13194 ədəd həb və 5,7 qr güclü təsir edən maddə çıxarılıb.

# Məmurlarla bağlı yeni qaydalar gəlir



**Dövlət qulluğuna qəbul qaydalarında dəyişiklik edilir.**

Teleqraf xəbər verir ki, bu məsələ Milli Məclisin iclasında müzakirə olunan “Dövlət qulluğu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Mövcud qanunvericiliyə əsasən, 1-3-cü kateqoriya dövlət orqanlarında (müvafiq icra hakimiyyəti orqanı, habelə Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələri istisna olmaqla) inzibati vəzifələrin birinci üçüncü təsnifatlarına uyğun olan vəzifələrə qəbul daxili müsahibə əsasında həyata keçirilir.

Təklif olunan dəyişikliyə əsasən, 1-3-cü kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci üçüncü təsnifatlarına uyğun olan vəzifələrə (yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinləri və Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələri istisna olmaqla) qəbul daxili müsahibə əsasında həyata keçiriləcək.

## Saxta medal hazırlayanlar həbs edildi

**Qanunsuz olaraq orden və medallar hazırlayaraq çoxsaylı şəxslərə təqdim etmiş qeyri-hökumət təşkilatlarının vəzifəli şəxsləri cinayət məsuliyyətinə cəlb edilib. Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib.**

Məlumata görə, Azərbaycan Respublikasında fəaliyyət göstərən bəzi qeyri-hökumət təşkilatları tərəfindən qanunsuz olaraq müxtəlif adda orden və medallar təsis edilərək ayrı-ayrı şəxslərə verilməsi faktları ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

Həyata keçirilən tədbirlərlə ayrı-ayrı qeyri-hökumət təşkilatları, o cümlədən “Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri”, “Azərbaycan Vətən Müharibəsi Veteranları”, “Şəhid Ailələri, Əlilləri və Müharibə Veteranlarının Müdafiəsi”, “Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı”, “Qarabağ Əlillərinə Qayğı”, “Sabitlik və İnkişaf Mərkəzi” İctimai Birlikləri, “Beynəlmiləlçi Əlil Döyüşçülər” və “Dədə Qorqud” Xeyriyyə Fondları, habelə digər qeyri-hökumət təşkilatlarının vəzifəli şəxslərinin öz vəzifə səlahiyyətlərini aşmalarına əsaslı şübhələr müəyyən edilib.

Belə ki, qanunvericiliyə, o cümlədən “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” qanuna uyğun olaraq orden və medalların vətəndaşlara xüsusi xidmətlərə görə dövlət tərəfindən verilən dövlət təltifi olması, digər normativ hüquqi aktlarda orden və medalların (o cümlədən ordenlərin və ya medal ifadəsindən hər hansı mənada istifadə edilməklə) təltif növü kimi təsis olunmasının qadağan olunması, Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında qanuna uyğun olaraq isə qeyri-hökumət təşkilatlarının nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinin yolverilməz olmasının təsbit edilməsinə baxmayaraq, sözügedən qeyri-hökumət təşkilatlarının vəzifəli şəxsləri vəzifə səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxmaqla qanunsuz olaraq müxtəlif adda çoxsaylı orden, medal və döş nişanları təsis edib, həmin orden medal və döş nişanlarını şəxsi münasibətlərə görə, eləcə də, müxtəlif məbləğlərdə pul vəsaiti qarşılığında çoxsaylı şəxslərə təqdim ediblər.

Keçirilmiş axtarış və digər istintaq hərəkətləri ilə 1.518 ədəd orden və medal, 777 ədəd orden və medalların vəsiqələri, 7 ədəd kitabça, qeyd edilən orden və medalların müxtəlif vaxtlarda 8.069 nəfər şəxsə təqdim edilməsinə dair qeydlər və digər maddi sübutlar götürülüb.

Toplanmış ilkin sübutlarla “Beynəlmiləlçi Əlil Döyüşçülər” Fondunun sədri Səyyaf Orucov, “Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri” İctimai Birliyinin sədri Mehdi Mehdiyev və “Azərbaycan Vətən Müharibəsi Veteranları” İctimai Birliyinin sədri Füzuli Rzaquliyevə Cinayət Məcəlləsinin 309.1-ci maddəsi (vəzifə səlahiyyətlərini aşma) ilə ittiham elan edilərək barələrində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Eyni zamanda oxşar xarakterli faktlarla bağlı prosessual hərəkətlər davam etdirilməklə, bu sahədə qanun pozuntularına yol vermiş qeyri-hökumət təşkilatlarının vəzifəli şəxslərinin ifşa olunaraq məsuliyyətə cəlb olunmaları istiqamətində tədbirlər davam etdirilir.

Qeyd olunanlarla yanaşı, bu sahədə nəzarətin həyata keçirilməsini təmin etmək, qanun pozuntularından çəkindirmək, qanun pozuntularının və onları doğuran səbəb və şəraitin aradan qaldırılmasını təmin etmək məqsədilə prokuror təsir tədbirləri görülür. İbtidai istintaq davam etdirilir, nəticəsi barədə əlavə məlumat veriləcəkdir.



## Bakıda qadın yıxılıb öldü

**Bakıda 87 yaşlı qadın 6-cı mərtəbədən yıxılaraq ölüb.**

APA-nın məlumatına görə, hadisə ötən gün Xətai rayonunun Gəncə prospektində baş verib. Əqli qüsurlu olduğu bildirilən 1938-ci il təvəllüdlü V.Rüstəmova yaşadığı binanın 6-cı mərtəbəsindəki evinin eyvanından yıxılaraq ölüb. Faktla bağlı araşdırma aparılır.



## Qubada ayı çobana hücum etdi

**Qubada ayı təsərrüfat sahibinə hücum edib.**

Report xəbər verir ki, hadisə rayonun Qonaqkənd qəsəbəsində baş verib. Belə ki, rayonun Vladimirovka kənd sakini 36 yaşlı Azər İsgəndərov xırdabuynuzlu heyvanları yaylaqda otararkən ayının hücumuna məruz qalıb.

Sürüdə olan çoban itləri təsərrüfat sahibini yırtıcı heyvanın əlindən xilas edə bilib. Hadisə zamanı müxtəlif dərəcəli bədən xəsarətləri alan A.İskəndərov Quba Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Qeyd edək ki, bundan öncə ayılar Xanagah, Qımılqazma və Səbətlər kəndində təsərrüfatlara zərər verib.



## Sumqayıtda oğru qadınlar saxlanıldı

**Sumqayıt şəhərində evlərin birindən oğurluq edilib. Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Şəhərin H.Z.Tağıyev qəsəbə sakini polisə müraciət edərək yaşadığı evdən 300 manat pul, 2000 manat dəyərində qızıl-zinət əşyasının oğurlanmasını bildirib. Sumqayıt ŞPİ 2-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri ilə əməli törətməkdə şübhəli bilinən R.Abbasova və A.İbrahimova saxlanılıblar. Faktla bağlı araşdırma aparılır.

Yeni MÜSAVAT
N 189 (8799) 18 oktyabr 2025

# Azərbaycanda daşıyıcı ana "ovu" - Gənc xanımlar Gürcüstana niyə aparılır?

## Ölkədə mütəşəkkil dəstə qadınları surroqat analıq yolu ilə pul qazanmağa şirnikləndirir; ekspertlərdən SOS: "İnsan orqan və toxumalarının qanunsuz alqı-satqısı qadağandır"

**Azərbaycanda fəaliyyət göstərən mütəşəkkil dəstə qadınları surroqat (daşıyıcı) analıq yolu ilə pul qazanmaq təklifləri ilə şirnikləndirir. "Yeni Müsavat" "Minval Politika"-ya istinadla xəbər verir ki, bu məqsədlə qapalı icmalarda və sosial şəbəkələrdə anonim elanlar yerləşdirilir. Qadınlara 18 min dollar qarşılığında uşaq daşıyıcılığı - surroqat analıq təklif olunur.**

Elan müəllifləri heç bir aldatma olmadığını vurğulayır.



Onlar onu da bildirirlər ki, surroqat ana olmaq üçün qadın müvəqqəti olaraq Azərbaycanı tərk etməli olacaq. Yəni döllənmə, hamiləlik və doğuşun özü Tbilisidə baş verir. Başqasının uşağını daşıyan surroqat anaya hamiləliyin 35-ci həftəsindən sonra, yəni ölü doğum riski minimal olduqda ödəniş vəd edilir.

Saytın əməkdaşı özünü başqa müştəri kimi təqdim edərək, Azərbaycandan surroqat anaları işə götürən qrupun Gürcüstandakı nümayəndəsi ilə telefonla əlaqə saxlamağa nail olub. Telefona Azərbaycan dilində səlis danışan qadın cavab verib. Söhbət zamanı məlum olub ki, implantasiya yolu ilə hamilə qalma şansı ən yüksək olan 30 yaşdan kiçik gənc qadınlarla işləməyə üstünlük verirlər. Hamilə qadın üçün Gürcüstandan kənara səyahət qəti qadağandır. Təşkilatçılar icarə və tibbi müayinə üçün bütün xərcləri qarşılayacaqlarına söz verirlər.

Surroqat ana xidmətinə müraciət edənlərin kimliyi məlum deyil və onlar haqqında məlumat yoxdur. Yalnız bu sxemin təşkilatçıları belə məlumatlara sahibdirlər. Bütün prosedur məxfidir.

Surroqat analığın Azərbaycanın özündə yox, Gürcüstanda tətbiq edilməsi sualının cavabı sadədir. Bizdə surroqat analığı tənzimləyən qanun yoxdur. Ailə Məcəlləsində "surroqat ana" ifadəsi olsa da, konkret qaydalar yoxdur. Gürcüstanda isə 1997-ci ildən bu, qanuni sayılır. Qanunda o da vurğulanır ki, genetik materialın donoru və surroqat ana uşağın valideynləri kimi tanına bilməz.

Bəs daşıyıcı ana biznesinin gənc xanımlar üçün hansı tibbi və hüquqi fəsadları ola bilər? Dinimiz nə deyir?

Yada salaq ki, Azərbaycanda surroqat analığa icazə verilməsi ilə bağlı məsələ uzun müddət parlamentin və ictimaiyyətin müzakirə mövzusu olub. Amma bu qanun qəbul edilməyib. Qalmaqallı olduğu üçün hətta Milli Məclisdə də müzakirəsi yarımçıq saxlanılıb.

Həkim-ginekoloq Rəşad Sultan mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bölüşüb: "Surroqat ana olmaq istəyən şəxsi hamiləlik və doğuş gözləyir. Süni mayalanma ilə əldə edilmiş rüşeymin ana bətninə qoyulması, hamiləliyin əldə olunması və doğuş. Ana bətninə qoyulmamışdan əvvəl verilən dərmanlar çox cüzidir, onların demək olar ki, riski yoxdur. Rüşeymin ana bətninə qoyulması prosesi də riskli və çətin deyil, çox sadə bir prosedurdur. Elmi dildə ona embrion transferi deyirik. Burada ən riskli hissə hamiləlik və doğuşdur. Hamiləliyin adi hamiləlikdən heç bir fərqi yoxdur. Başqa doğuşlarda nə risklər varsa, burada da odur. Gənc xəstələri seçmələrinin səbəbi odur ki, hamiləlik sağlıqlı keçsin, risklər minimal olsun. Çünki müəyyən yaşdan sonra risklər də artır, həm ana, həm döl üçün. Bu hamiləliklər keysəriyyə əməliyyatı ilə edilir. Hər bir hamiləlik anadan bir şey alır. Bəziləri elə bilir ki, hamiləlik yaxşı haldır, qadınlar cavanlaşır, bunlar mənasız söhbətlərdir. Əlbəttə, belə deyil. Hər bir hamiləliyin trombemboliya, qanaxma və nəhayət ölüm riski də var. Onsuz da buna gedən qadınlar qarşılığında ödənişi ona görə alırlar".

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 137-ci maddəsi insan orqan və toxumalarının qanunsuz alqı-satqısını, qeyri-qanuni donorluq hallarını və transplantasiya əməliyyatlarını cinayət məsuliyyəti ilə cəzalandırır. Bu barədə isə hüquqşünas Ramil Süleymanovla söhbətimiz zamanı məlumat aldıq.

Hüquqşünas qeyd etdi ki, "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanuna əsasən, müəyyən edilmiş şəxslərdən donor orqanlarının götürülməsinə icazə verilir. Lakin bu prosesin maddi maraq əsasında - pulla orqan alınması və ya satılması - qanunla qəti şəkildə qadağan edilib. Onun sözlərinə görə, bu cür qanunsuz alqı-satqı halları Cinayət Məcəlləsinin 137.1-ci maddəsinə əsasən, 6 min manatdan 9 min manata qədər cərimə və ya 3 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırıla bilər.

Ramil Süleymanov əlavə etdi ki, transplantasiya əməliyyatlarının aparılması üçün dövlət tərəfindən təsdiqlənmiş tibb müəssisələrinin siyahısı mövcuddur və yalnız həmin müəssisələrdə bu prosedurlar qanuni şəkildə həyata keçirilə bilər. Əgər qanunla qadağan olunmuş şəxslərdən orqan götürülərsə, bu halda cərimənin məbləği 9 min manatdan 15 min manata qədər arta bilər və şəxslər 4 ilə qədər azadlıqdan məhrumetmə və ya müəyyən fəaliyyət növü ilə məşğul olma hüququndan məhrumetmə ilə cəzalandırıla bilər.

O həmçinin vurğulayıb ki, Azərbaycan qanunvericiliyində surroqat ana (daşıyıcı ana) anlayışı hüquqi baxımdan tanınmır. Bu səbəbdən, bu sahədə edilən istənilən gizli razılaşmalar, o cümlədən surroqat ana vasitəsilə doğulan uşağın hüquqi qeydlərinin dəyişdirilməsi cəhdləri də qanuna zidd hesab olunur və cinayət məsuliyyətinə doğura bilər.

İlahiyyatçı-alim Samid Quliyev də mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bildirib: "Tibbi ədəbiyyatda "surroqat analıq" adlandırılan bu məsələ, daşıyıcı ana prinsipi əsasında qurulmuş və müasir tibbin təqdim etdiyi elmi yanaşmalardan biridir. Bu baxımdan, Qurani-Kərimdə, Sünnədə və həmçinin klassik dövr alimlərinin fətvalarında bu məsələyə dair birbaşa açıqlamalar yoxdur. Lakin müasir dövrdə, məsələyə dini və etik baxımdan aydınlıq gətirmək məqsədilə həm İslam Konfransı Təşkilatına bağlı Beynəlxalq Fiqh Akademiyası, həm də bir sıra müsəlman ölkələrin rəsmi fətva orqanları bu məsələni geniş şəkildə müzakirə ediblər. Hər iki istiqamətdə aparılan araşdırmaların nəticəsində belə qənaətə gəlinib ki, daşıyıcı analıq yolu ilə övlad sahibi olmaq İslam prinsiplərinə zidd və caiz (icazəli) deyil. Fiqh mütəxəssisləri yalnız bir istisna halı qeyd edirlər: Ər-arvad arasında, yalnız kişinin sperması ilə öz arvadının yumurtasının laborator şəraitdə mayalandırılması və bu rüşeymin həmin qadının (yəni uşağın bioloji anasının) bətninə yerləşdirilməsi. Bu hal bəzi alimlər tərəfindən şəriətə uyğun hesab olunur, çünki burada üçüncü bir şəxsin cəlb olunması yoxdur və nəsəb qarışmır.

Bundan əlavə, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının qanunvericiliyində də "surroqat ana" anlayışı yer almır. Bu hal bir daha onu göstərir ki, bu tip yanaşmalar təkcə dini deyil, hüquqi və milli-mənəvi dəyərlərimiz baxımından da ciddi etik və sosial risklər daşıyır. İstənilən halda, daşıyıcı analıq, xüsusilə qadın bədəninin vasitə kimi istifadəsi deməkdir ki, bu da insan istismarı kimi qiymətləndirilə bilər".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**



## Fazil Mustafa: "Bu, ailə institutu üçün faciəvi problemdir"

**Milli Məclisin iclasında çıxış edən deputat Fazil Mustafa demoqrafik məsələlərə diqqət çəkib. Musavat.com xəbər verir ki, həmçinin bu məsələ ilə bağlı ciddi narahatlıq doğuran faktları xatırladıb:**

"Statistikada qeyd olunur ki, son 5 ildə Azərbaycanda 83 min nikahdankənar uşaq doğulub. 9 min uşağı 15-19 yaşlı qızlar dünyaya gətirib. Bu, ailə institutu üçün olduqca böyük faciəvi problemdir. Biz bu istiqamətdə cəmiyyətdə ictimai müzakirə yaratmalıyıq. Necə etməliyik ki, ailə institutunu qoruya bilək?"



## Bakıda məktəbli bıçaqlandı - iki qurum açıqlama yaydı

**Bakıda bıçaqlanan məktəblinin vəziyyəti orta ağırdır. Bu barədə TƏBİB-dən bildirilib. Qeyd olunub ki, oktyabrın 15-də saat 15:30 radələrində Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə Binəqədi rayonu ərazisindən təcili çağırış daxil olub. "Dərhal təcili tibbi yardım briqadası çağırış ünvanına cəlb olunub.**

Təcili tibbi yardım briqadası tərəfindən kişi cinsli şəxs bədənin çoxsaylı kəsilmiş-deşilmiş yaraları diaqnozu ilə Kliniki Tibbi Mərkəzə hospitalizasiya olunub. Kliniki Tibbi Mərkəzin Uşaq Cərrahiyyəsi şöbəsinə hospitalizasiya olunan 2008-ci il təvəllüdlü (kişi) pasiyent əməliyyat edilib", - məlumatda qeyd olunub.

Oktyabrın 15-də dərsdən kənar vaxtda (saat 16:00 radələrində) məktəbdənkənar ərazidə 274 nömrəli məktəbin X sinif şagirdi tərəfindən (müvafiq səbəbdən şagirdin adı qeyd olunmur) 306 nömrəli məktəbin şagirdinin qardaşına xəsarət yetirilməsi haqqında məlumat daxil olub.

Bu barədə Teleqraf-ın sorğusuna cavab olaraq Bakı Şəhəri üzrə Təhsil İdarəsindən bildirilib.

Qeyd olunub ki, məsələ ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.

Hüquq-mühafizə orqanları tərəfindən müvafiq araşdırma aparıldığını nəzərə alaraq ictimaiyyətin bu mövzuda daha həssas davranması, hadisə barədə rəsmi qurumların açıqlamalarına istinad edilməsi xahiş olunur.

YENİ MÜSAVAT
N 189 (8799) 18 oktyabr 2025

# Müstəqilliyimizin bərpasından 34 il ötür

## Deputat: "Bu tarixi qələbələrin ab-havasında qeyd edirik"

**Bu gün Azərbaycanın Dövlət Müstəqilliyinin bərpası günüdür. 1988-ci ildən başlanan müstəqillik uğrunda xalq hərəkatı 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunması ilə hədəfinə çatmış oldu. 1991-ci il 18 oktyabr tarixində qəbul edilən, 6 bölmə, 32 maddədən ibarət olan sənədin adı "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" konstitusiya Aktı adlansa da, əslində dövlət müstəqilliyinin bərpasına dair sənəddir. Həmin sənəddə yazılır ki, 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal bəyannaməsini qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdi.**

Aktda Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi hesab edilir. Beləliklə, 1918-ci ildə İstiqlal Bəyannaməsinin qəbul olunduğu 28 may Azərbaycan Respublikasında müstəqillik günü, 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunduğu 18 oktyabr isə müstəqilliyin bərpası günü hesab olunur.

Beləliklə, bu gün Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsindən 34 il keçdi.

Milli Məclisin oktyabrın 17-də keçirilən iclasında sədr Sahibə Qafarovanın təklifi ilə Müstəqilliyin Bərpası Günü münasibətilə Prezident İlham Əliyevə və Birinci xanım Mehriban Əliyevaya təbrik məktubu ünvanlanıb.

Deputat Aydın Hüseynov "Yeni Müsavat"a bildirdi ki, müstəqilliyin bərpasına nail olmaq nə qədər çətin idisə, müstəqilliyi qoruyub saxlamaq ondan da ağır və məsuliyyətli bir işdir: "Azərbaycan xalqı 1991-ci ilin 18 oktyabrında dövlət müstəqilliyini bərpa etdi. Lakin elə həmin zamanlardan başlayaraq ölkəmizə qarşı Qarabağdakı erməni separatizmi, Ermənistanın Azərbaycana qarşı müharibəsi, müstəqilliyimizi istəməyən xarici qüvvələrin təzyiqləri, təxribatları, bir tərəfdən isə ölkəmizin daxilində hakimiyyət uğrunda mübarizə xaos vəziyyəti yaratmış və faktiki olaraq müstəqilliyimizi itirmək, ölkənin parçalanması təhlükəsi ilə üz-üzə qalmışdıq. Müstəqilliyimizin bərpasından keçən 34 ilin ilk illəri böyük təlatümlərlə müşayiət olundu. Gənc respublika həmin dövrdə ağır sınaqlarla, faktiki olaraq müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə idi. Daxili çəkişmələrin hökm sürdüyü, hakimiyyət davasının aparıldığı həmin hərc-mərclik dövründə ölkəmiz vətəndaş müharibəsinin astanasında, ağır siyasi, iqtisadi böhranların məngənəsində çırpınırdı. Digər yandan da torpaqlarımız Ermənistan silahlı qüvvələri tərəfindən bir-bir işğala məruz qalır, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşərək ağır məhrumiyyətlər içərisində ölkəmizin digər rayonlarında yaşamağa məcbur olurdular.




Azərbaycan dövləti və xalqı məhz Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində çox ağır məhrumiyyətlərdən, çətinliklərdən, sınaqlardan çıxaraq müstəqilliyimizi qoruya bildi. Tarixinin ağır sınaqlı dönəmində müdrik xalqımız təkidli tələbi ilə Heydər Əliyevi hakimiyyətə qaytarmaqla Azərbaycanı XX əsrdə yenidən müstəqilliyini itirmək təhlükəsindən qurtardı. Azərbaycanın xilaskarı Ulu Öndər apardığı məqsədyönlü daxili və xarici siyasət sayəsində qısa müddətdə ölkəmizi böhrandan azad edərək xilas yoluna çıxardı. Cəmi 10 il ərzində Ümummilli Lider Heydər Əliyev Azərbaycanı müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə olan ölkədən, dünyada tanınan, azad siyasət yeridən, rifah və tərəqqi ölkəsinə çevirdi".

Deputat vurğuladı ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan adlı müstəqil dövlət olmayacaqdı, dövlət müstəqilliyi əldən gedəcəkdi, ölkə düşmən qüvvələr arasında bölüşdürüləcəkdi: "Heydər Əliyev Azərbaycanı xilas etdi və inkişaf yoluna çıxardı. Məhz Ulu Öndərin strategiyası, siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi isə Azərbaycanı bugünkü qalib, dünyada çox böyük nüfuz qazanmış ölkə etmiş oldu. Azərbaycan dünya siyasətinə, dünya idarəetməsinə yön verən dövlətlər tərəfindən böyük rəğbətlə qarşılanır, Azərbaycan dünyanın taleyini həll edən zirvə toplantılarına dəvət edilir. Müstəqil Azərbaycanın ordusu dünyanın güclü orduları sırasında yer alır, Azərbaycan iqtisadi, sosial həyatında ilbəil yüksəliş davam edir. Azərbaycan Avropanın enerji təminatında rol oynayan ölkədir. Azərbaycanla artıq hər kəs hesablaşır. Azərbaycanın, onun liderinin mövqeyi dünyada qəbul edilir. Azərbaycan bütün istiqamətlərdə çox böyük inkişaf yolunu qət etmiş ölkədir.

1988-ci ildən başlayaraq xalqımıza zülmlər, ağrı-acılar yaşadan erməni faşizmindən, terrorundan, separatizmindən qurtulmuşuq. Torpaqlarımızı işğaldan azad etmişik, xalqımızın qatilinə çevrilən erməni canilərini haqq-ədalət qarşısında cavab verməyə məcbur etmişik.

Torpaqlarımızın bir qərinəlik işğalına son qoyaraq yüz minlərlə keçmiş məcburi köçkünü vətəndə qəribçilik yükündən azad edərək Qarabağ və Şərqi Zəngəzura yeni həyat qaytarmışıq. Ən ümdəsi müstəqil ölkəmizin bütün ərazilərində bayrağımız dalğalanır, Qarabağda suverenliyimiz tam bərpa edilib".

A.Hüseynov dedi ki, Azərbaycan Prezidenti İlham Əliyev dünyaya öz mövqeyi olan əsl müstəqil dövlət modelini təqdim edib: "Azərbaycan heç kimin diktəsi ilə hərəkət edən dövlət deyil, Azərbaycan öz maraqlarını heç kimə, heç nəyə güzəştə getməyən əsl müstəqil dövlətdir. Bu gün bayrağımızın ölkəmizin hər yerində dalğalanmasından böyük qürur hissi keçirdirik. Dövlət müstəqilliyimiz toxunulmaz və əbədidir. Bu gün - 18 oktyabr Müstəqilliyimizin Bərpası Gününü Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın əldə etdiyi bütün qələbələrin ab-havasında qeyd edirik".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Zahid Oruc: "23 ermənini tələb edənlər buna cavab versin"

**"Avropa İnsan Haqları Məhkəməsi Azərbaycanda saxlanılan 23 erməni məhbusla bağlı ölkəmizdən noyabrın 4-dək məlumat tələb edir. Bəli, Strasburq hakimləri fərdləri və dövlətləri mühakimə etmir, Avropa İnsan Hüquqları Konvensiyasına sadiqliyə nəzarətə çalışır. Ölkəmizsə beynəlxalq öhdəliklərinə daim əməl edib. Lakin bizdən istənilən hesabat deyil, immunitetdir, "əsir" adı altında məhbuslara, onların əməllərinə bəraət qazandırmaq cəhdidir".**



Musavat.com xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Zahid Oruc deyib. O qeyd edib ki, Avropa hüquq şəbəkəsinin, mediasının və maliyyəsinin güclü dəstəyi altında olanlardan 16 nəfəri Bakı Hərbi Məhkəməsi qarşısına çıxarılanlardır. Onda biz Qərb ədliyyəsindən soruşuruq: Slobodan Miloşeviçi dünyanın gözü qarşısında Hərbi Tribunalda mühakimə edənlər 23 min şəhidimizin, 1 milyon qaçqının-köçkünün hüquqlarını pozanları, yüzlərlə şəhər və kəndimizi dağıdanları, qiymətsiz mədəni sərvətlərimizi mənimsəyənləri nədən qoruyurlar?

İşğala susanlar cinayətlərdə günahlandırılanları qurban və qəhrəmana çevirib niyə himayə edirlər?

Diqqət edin, Ermənistan hakimiyyəti bu şəxslərin çoxunu geri istəmir. Çünki bilir ki, onlar döyüş əməliyyatları zamanı deyil, atəşkəsdən sonra terrorçuluq, qanunsuz silahlı birləşmələrdə iştirak və sərhədi pozma kimi onlarla qanunsuz əməldə suçlanırlar.

Kopenhagendə Avropa Siyasi Birliyi Vaşinqton razılaşmalarını alqışladı, lakin onun məhkəməsi hüquqi yox, siyasi qərarlar çıxarır. Sülhə ən böyük zərbəni "əsir" adı altında separatizm və terroru müdafiə etmək vurur!

Son 30 ildə Avropa Məhkəməsi yalnız Çıraqov qardaşları kimi az sayda azərbaycanlının haqlarını tanıyıb. İndi təklif edirik ki, doğma yurdlarına qayıtmaq istəyən 100 minlərlə insan evini Avropa Məhkəməsindən tələb etsin. Onda görəcəyik kim ədalətlidir..."

Deputat bildirib ki, Azərbaycan dövləti mühakimə olunan şəxslərə 20 sentyabra qədər reinteqrasiya və sülh təklif etdi: "Paşinyan özü belə həmin separatçıları onu devirmək üçün İrəvana gəlməkdə ittiham edir. Biz sülh təklif etdik, cavab terror oldu! Reinteqrasiyaya çağırdıq, silahla qarşılıq verdilər.

Bəs hansı beynəlxalq təşkilat bizim savaşımızda ədalətli hakim olub? Əgər Beynəlxalq Qırmızı Xaç Komitəsinin maşınları ilə Xankəndinə silah daşıyırdılarsa, deməli, müqəddəs xaçı "öldür" deyən Eçmiədzin Katolikosluğuna qurban veriblər.

Azərbaycan dövləti hərbi əsirləri 2022-ci ilədək azad edib. Avropa məhkəmələri Abxaziya, Krım, Donetsk kimi ərazilərdə silah tətbiq edənləri "işğalçı" adlandırır, onlara sanksiya tətbiq edir. Bəs Qarabağın azadlığından niyə qorxurlar? Azərbaycan Ermənistanla sülh yolunda son maneələri aşarkən, iki Qafqaz dövl'tinin barışını istəməyən qüvvələr 30 illik işğalın simalarına azadlıq tələb edir.

Əgər Beynəlxalq Ədalət Məhkəməsi həqiqətən Nürnberq olsaydı, onda həmin şəxslər onlara təhvil verilərdi. Lakin kim zəmanət verir ki, sabah qukasyanları, arutyunyanları azad edib yenidən üstümüzə silahla göndərməyəcəklər? Ona görə də ən ədalətli məhkəmə Vətən müharibəmiz, ən adil hakim Zəfərimizdir!"

YENİ MÜSAVAT
N 189 (8799) 18 oktyabr 2025

## Həbibbəylidən Mehdiyevlə bağlı açıqlama



**Ramiz Mehdiyevin Azərbaycan Milli Elmlər Akademiyasında üzvlüyü məsələsinə baxılır.**

Report xəbər verir ki, bunu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli jurnalistlərə açıqlamasında deyib.

"Biz də son hadisələrə çox təəssüf edirik. Məsələ məhkəmə qərarından sonra müzakirə olunacaq, ona uyğun qərar veriləcək", - o qeyd edib.

# Mehdiyevin xəyanət dosyesinin yeni detalları - gizlinlər açılır

## Sabiq PA rəhbəri 7 saat dindirildi; "boz kardinal"ın Təhlükəsizlik Şurasından və partiyadan çıxarılması an məsələsidir - açıqlama



**Prezident Administrasiyasının 3 gün öncə həbs olunan sabiq rəhbəri Ramiz Mehdiyev Dövlət Təhlükəsizlik Xidmətinin İstintaq Baş İdarəsində aparılan istintaq çərçivəsində növbəti dəfə ifadə verib. Hazırda ev dustaqlığında olan Ramiz Mehdiyev oktyabrın 16-da 7 saata yaxın müstəntiqlərin suallarını cavablandırıb.**

Bu haqda Gununsesi.info məlumat yayıb. Sayt yazır ki, Mehdiyevi dövlət tərəfindən təqdim edilən vəkil Zaur Abıyev müşayiət edib. Məlumatda o da bildirilir ki, Ramiz Mehdiyev istintaqa gələrkən əlində əsa olub.

Məzlum obrazında ifadə verməyə gələn Mehdiyevin vəkili olsa da, onun ictimai müdafiəsi faktiki olaraq yox səviyyəsindədir. Hüquq müdafiəçisi Novella Cəfəroğlu "Yeni Müsavat"a deyib ki, Ramiz Mehdiyevin ictimai müdafiəsiz qalması təbii qarşılanmalıdır: "Ramiz Mehdiyevi bilirsiz kimlər müdafiə etməlidir? Ramiz Mehdiyevin kabinetindən keçib deputat, səfir olanlar, hansılar ki, bu gün parlamentdə oturublar. Dövlətdən bu gün də hər ay 10-20 min manat təqaüd, maaş alırlar. Hansılar ki, Ramizin qapısında saatlarla gözləyib onunla birgə kitab yazıblar! İndi müxalifətdədirlər, amma Ramiz Mehdiyevin yaxın silahdaşlarıdır. Onlar da gedib Ramizi müdafiə etsinlər".

Hüquq müdafiəçisi deyib ki, Ramiz Mehdiyev hazırda təcridxanada yox, evində dustaqdır deyə, onun hüquqlarını qorumağa da ehtiyac yoxdur: "Əgər təcridxanada olsaydı, və ya cəza alıb türməyə göndərilsə idi, orada onunla pis rəftar olunsaydı, bu halda onu müdafiə etmək olardı. İndiliksə Ramiz Mehdiyev özünün imarətində oturub, ona kim təzyiq edəcək? 30 il Prezident Adminstarsiyasında əyləşib, orada dövlətin gücündən kimə qarşı istəyibsə, ona qarşı da istifadə edib. İndi də istintaq gedir. Nəticəsini gözləyək. Ramiz Mehdiyev türməyə göndəriləcəksə, o zaman bu məsələlərə qayıtmaq olar".

Bu arada keçmiş deputat Gülər Əhmədova Mehdiyevlə bağlı açıqlama verib. O, Ramiz Mehdiyevin əmri, tapşırığı, fitvası ilə ailəsinin bədbəxt edildiyini deyib: "Bu adamın əmri ilə, gecə-gündüz bilmədən sifarişlə yazdığınız şər-böhtanı təkzib etməyi? Mənim illərlə gördüyüm işləri, Respublika Uşaq Təşkilatında, "Mərkəz" qəzetində, millət vəkili kimi yorulmadan çalışmağımı bir anda unudub, məhz bu siyasi timsahın əmri ilə məndən, şərəfsiz, namussuz, qatil, oğru, dələduz yaratdığınız üçün mənim də dəyişib siyasi buqələmun olacağımı gözləyirsiniz? Səhv edirsiniz, yanılırsınız!"

Gülər Əhmədova Modern.az-a Ramiz Mehdiyevi ilk dəfə harada tənqid etməyindən də danışıb: "Mən Ramiz Mehdiyevi ilk dəfə Gənclərin ikinci forumunda tənqid etmişəm. Həmin forumda rəhmətlik Ulu öndər, cənab Prezident İlham Əliyev və 2000 nəfər forum iştirakçısı vardı. Məhz "təhlükəli" çıxış etdiyim üçün zalda ölü bir sükut hökm sürürdü. Mən çıxışımı bitirəndə 1-2 saniyə sonra Ulu öndər və o zaman gənc olan cənab Prezident əl çaldı və zalı alqış sədaları bürüdü. Daha sonra, 2001-ci ildə bizi Respublika Uşaq Təşkilatının qərargahından çıxarmaq istəyərkən, mən cənab Prezident İlham Əliyevlə görüşdüm və ona çox şeyi danışdım. Hələ dahası da var... Amma bu söhbətlərə indi ehtiyac yoxdur".

Sabiq deputat Ramiz Mehdiyevi "siyasi timsah" adlandırıb: "Ramiz Mehdiyevin mənə və ailəmə nələr yaşatdığını sizlər çox yaxşı bilirsiniz. Sadəcə, onları yazın. Zamanında onun fitvası ilə yazdığınız şər-böhtanı yadınıza salın. Sirus Təbrizlini, Alqış Musayevi, Musa Musayevi, məni - Gülər Əhmədovanı və daha neçə-neçə əsl Əliyevçini işsiz qoyan, siyasi karyerasını məhv edən, çərlədib öldürən, xəstə edən bu siyasi timsahı mənə tanıtmağa da ehtiyac yoxdur. Gedin gah iqtidar, gah müxalifət olan, onun başına pərvanə kimi dolanan, indi əlində "p.. yemişəm" qaşığı ilə gəzənlərdən fikir soruşun. Mən kiməm ki? Mən zindanda, məzlum olarkən, səcdədə onu Allaha həvalə etmişəm. Mənə və ailəmə çəkdirdiklərinin 1000 qatını özü və ailəsi çəkəcək, inşallah!"

Bu arada Azərbaycan Təhlükəsizlik Şurası katibinin müavini general-polkovnik Mədət Quliyev Ramiz Mehdiyevin şurada qalıb-qalmayacağı məsələsinə aydınlıq gətirib. "Hər şey qanun çərçivəsində öz həllini tapacaq. Bir nəfər vaxtilə Şuranın üzvü olub, o da təbii ki, qanunla çıxarılacaq. Bizim ölkəmiz hazırda dünya miqyasında cənab Prezidentin sayəsində ən önəmli yerini tutub. Azərbaycan hüquqi və dünyəvi dövlətdir. Hər bir şəxsə qanunun gücü tətbiq olunub və olunacaq. Buna hər kəs əmin ola bilər. O, bir sıra təşkilatların, YAP-ın da üzvüdür. Zamanla və qanunun aliliyi çərçivəsində hər şey həllini tapacaq", - deyə Mədət Quliyev əlavə edib.

Bir neçə gün qabaq isə YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə Ramiz Mehdiyevin Yeni Azərbaycan Partiyasından da çıxarılacağını açıqlayıb.

Xatırladaq ki, oktyabrın 14-də Səbail Rayon Məhkəməsində Ramiz Mehdiyev haqqında 4 aylıq ev dustaqlığı qətimkan tədbiri seçilib. Ona qarşı Cinayət Məcəlləsinin 274-cü - dövlətə xəyanət, 278-ci - hakimiyyəti zorla ələ keçirmə və ya saxlama, 193-1.3.2-ci - cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma maddələri ilə ittiham irəli sürülüb. İttihamlar təsdiqini taparsa, Ramiz Mehdiyevi 20 ilədək və ya ömürlük həbs cəzası gözləyir. Cinayət işinin istintaqı Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq Baş İdarəsi tərəfindən aparılır.

❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"

## Tahir Kərimli: "Onu görəndə "farağat" komandasında dururdular"



**"Adətən bizdə şəxs, yaxud hadisə haqqında dövlət başçısı, dövlət orqanları addım atandan sonra araşdırmalar, tənqidi mülahizələr zəncirvari reaksiya kimi baş alıb gedir. Həmişə bu cür görmüşük. Ramiz Mehdiyevlə də bağlı eyni prosesi müşahidə edirik. Ancaq Ramiz Mehdiyevə qarşı irəli sürülən ittihamlar o qədər fərdi, sərt, məxsusidir ki, bu ittihamları xalq və digərləri bilməyə də bilərdi. Məsələn, dövlətə xəyanəti xalq konkret şəkildə bilməyə bilər. Heç mən də bilmirəm. Əvvəllər bu, vətənə xəyanət idi. Lakin biz o zaman qərar verdik ki, vətənə xəyanət daha ciddi məfhumdur. Bunu dövlətə xəyanətlə əvəz etdik. Bu hökm sübuta yetiriləndə cinayətkarlar ölüm hökmünə belə düçar olurdular. Yaxud dövlət çevrilişi ilə bağlı. Yəni məxsusidir. Kimisə qınamaq olmaz ki, niyə əvvəlcədən bunları işıqlandırmamısan? Korrupsiya əməlləri ilə bağlı verilən ittihamlar Ramiz Mehdiyevin və bu gün həbsdə olanların, olmayanlarınn geniş fəaliyyət göstərdikləri monopoliya ilə məşğul olmaları hər kəsə aydındır. Bu o qədər geniş və əhatəlidir ki, ayağını-başını yığıb-yığışdırmaq olmur. Görürsən ki, hansısa bir korrupsiya şəbəkəsinin həlqəsinə qarşı nəsə edirsən, ictimai qınaq, yaxud hüquqi təqib olur, digəri qalır. Məsələn, Elm və Təhsil Nazirliyi, eləcə də Mədəniyyət Nazirliyi tenderlərini verdiyi şirkətlərdən biri "Şərq-Qərb" ASC-dir. Şirkət Ramiz Mehdiyevə məxsusdur. Vaxt tapıldıqca bunlarla məşğul olunacaq".**

Bu sözləri Pravda.az-a açıqlamasında sabiq deputat Tahir Kərimli deyib.

"Çox ehtiyatlı olmaq lazımdır. Təsəvvür edin ki, mənim özüm barədə nələr deyirlər. Guya Ramiz Mehdiyev barədə demişəm ki, müstəqil dövlət qurulmasında bu adamın müstəsna rolu olub. Sanki Ramiz Mehdiyevlə birlikdə xalq hərəkatında olmuşuq, o da mənimlə istiqlalçı deputat olub, "qol" çəkib, ya nə edib... Adama yalanı, şəri yaxanda heç olmasa həqiqətə oxşasın. Ramiz Mehdiyevlə ömrümdə bircə dəfə rastlaşmışam. Heydər Əliyev Sarayında gözləyirdik. Nazirlər, digər vəzifəli şəxslər "farağat" komandasında durmuşdular. Çünki Mehdiyev Baş nazirlə irəliləyirdi. Kimsə cürət edib gedib görüşə bilirdi, ya görüşmürdü. Mən də əziz deputat qardaşım Fərəc Quliyevlə bir yerdə dayanmışdım. Ramiz Mehdiyev gəlib bizimlə görüşdü, dedi ki, müsahibəni oxumuşam. Fərəc bəy dedi ki, görürsən, sənə əməlli başlı qiymət verir. Halbuki o zaman çoxları ölərdi ki, gedib Ramiz Mehdiyevə salam versin. Bundan başqa ömrümdə bir dəfə də olsun, bu insanla ünsiyyətim olmayıb. Ciddi rəqib olanda isə təbii ki, Ramiz Mehdiyev qarışıq hamını tənqid etmişəm. Yeri gəlmişkən deyirəm ki, çox həssas məqamdır, bu məsələ ağıllı şəkildə müzakirə olunmalıdır. Qərəz olmamalıdır, doğru, düzgünlük olmalıdır. Kampaniyaçılıq olmamalıdır. Həqiqətlər üzə çıxarmalıdır. Cinayət varsa, üzə çıxarılaraq cəzası verilməlidir", - o bildirib.

YENİ MÜSAVAT
N 189 (8799) 18 oktyabr 2025

# MDB ölkələrinə rus dili tələbi - Moskvadan qəribə davranış

## Azər Həsrət: "Rusiya imperiya təfəkküründən hələ də qurtula bilmir"

**"MDB ölkələrində rus dilinin dəstəklənməsi əməkdaşlığın ümumi gələcəyinə sərmayədir". Bunu Rusiya Federasiyası Şurasının sədri Valentina Matviyenko "Rus dili MDB regionunda inteqrasiya dialoqunun əsasıdır" adlı konfransın iştirakçılarına müraciətində deyib.**

"Rus dilinin dəstəklənməsi siyasi məqsədəuyğunluq məsələsi deyil, ümumi gələcəyimizə, təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığın inkişafına sərmayədir", - Matviyenko bildirib (Teleqraf).

Rusiyalı spiker müraciətində başqa bir qəribə ifadə də işlədib, o qeyd edib ki, "MDB ölkələrinin ümumi vəzifəsi" rus dilinin mövqeyini qorumaq və möhkəmləndirməkdir.

Hansı "ümumi vəzifə"dən söhbət gedir əgər MDB ölkələrin hamısı BMT üzvü olan suveren dövlətlərdirsə? Konkret olaraq Azərbaycanın rus dili ilə bağlı heç bir öhdəliyi toxdur. Çünki bizim dövlət dilimiz Azərbaycan dilidir. Bəs Matviyenko nə demək istəyir? Rusiya niyə belə narahatdır?

Mövzu ilə bağlı siyasi şərhçi Azər Həsrət "Yeni Müsavat"a danışıb. Siyasi şərhçi qeyd edib ki, Matviyenko bu ifadəni işlətməklə bir daha göstərir ki, Rusiya imperiya təfəkküründən hələ də qurtula bilmir:

"Azərbaycan da daxil olmaqla digər MDB dövlətləri müstəqil dövlətlərdir. Nə olsun ki, biz Müstəqil Dövlətlər Birliyində üzvük? Bu, o demək deyil ki, biz həmin birliyə üzv olmaqla hansısa bizə yad, yabancı olan xarici dövlətin dilini qorumaq, yaşatmaq öhdəliyi götürmüşük.

Azərbaycanın elə bir öhdəliyi yoxdur. Azərbaycan üçün dil məsələsində ikibaşlı və ikimənalı heç nə yoxdur. Azərbaycan Respublikasının Konstitusiyasına görə, Azərbaycanın dövlət dili Azərbaycan dilidir və bundan başqa hər hansı dilin üstün statusu yoxdur. Azərbaycanda fərqli dillər əlbəttə ki, inkişaf etdirilir, yaşadılır. Lakin dövlətin hansısa xarici ölkənin dilini burada üstün tutmaq, yaşatmaq və ya inkişaf etdirmək öhdəliyi yoxdur, o cümlədən də rus dilini. Yəni onlar bu cür danışmaqla bir daha göstərirlər ki, imperiya təfəkküründən əl çəkə bilməyiblər".

Azər Həsrətin fikrincə, Azərbaycan artıq MDB üzvlüyündən imtina etməlidir:

"Müstəqil Dövlətlər Birliyi adından da göründüyü kimi müstəqil dövlətlərin birliyidir, könüllü birlikdir. Bu birlik çərçivəsində hansısa addım atılırsa, qərar qəbul edilirsə və ya öhdəlik yaradılırsa, həmin öhdəlik yalnız ümumi razılaşma əsasında qəbul edilə bilər. Yəni, heç bir dövlətin, o cümlədən də Rusiya dövlətinin hər hansı rəsmisi bizə dəxli olmayan bir öhdəlik yükləyə bilməz. O cümlədən də rus dilini yaşatmaqla bağlı.

Azərbaycanın onun torpaqlarını işğal etmiş, yüz illər boyu Azərbaycan xalqına zülm etmiş, bütün yerüstü və yeraltı sərvətlərimizi talamış bir dövlətin hələ də imperiya dilini yaşatmaq kimi bir öhdəliyi ola bilməz və yoxdur da. Bunu, nəhayət, Moskvada anlamalıdırlar.

Ümumiyyətlə, Rusiya indi düşdüyü çətin durumda bu cür məsələləri gündəmə gətirməklə, öz xislətindən, yeni imperiya düşüncəsindən imtina etməyəcəyini bir daha göstərir. Buna görə də düşünürəm ki, Azərbaycan mümkün qədər Rusiyadan uzaq durmalıdır. Biz nə qədər Rusiyadan kənar olsaq, aralı olsaq, bir o qədər yaxşıdır.



Bunun çıxış yolları bizə məlumdur və dəfələrlə demişik. Bir daha təkrarlayıram: biz artıq MDB deyilən süni birlikdən imtina etməliyik. O MDB-ni bir vaxtlar Rusiya özünü ayaqda saxlamaq üçün qurmuşdu. Təbii ki, müəyyən səbəblərə görə Azərbaycan da sonradan o birliyə qoşuldu. Amma indi zaman yetişib, biz artıq Rusiyanın yaşaması üçün qurulmuş bu birlikdən imtina etməliyik.

Bizə, əslində, MDB-nin verdiyi heç nə yoxdur. MDB-nin önünü çəkən Rusiya dövləti isə biz azərbaycanlılara daim zülm edir. Rusiya ərazisində azərbaycanlıların hüquqları kütləvi şəkildə tapdanır. Hər həftə, hər ay azərbaycanlılarla bağlı həyəcanlı xəbərlər alırıq: kiminin vətəndaşlığı ləğv edilir, kiminin ölkəyə girişi qadağan olunur, kimisi isə deportasiya edilir. Hətta azərbaycanlı deputat təyyarə ilə Moskvaya qədər uçur, oradan geri qaytarılır "ölkəyə girişin yasaqlıdır" deyib.

İndi biz bu dövlətə hörmətlə yanaşmalıyıqmı? Onun dilinə hörmətlə yanaşmalıyıqmı? Əsla! Rusiya bütün balansını tükədib. Azərbaycanın ona hansısa səbəblərdən diqqət və hörmət göstərməsi üçün artıq heç bir əsas qalmayıb. Rusiya bizə o qədər pisliklər edib və etməyə də davam edir ki, düşünürəm, ondan mümkün qədər uzaq qaçmaq lazımdır.

Bu uzaqlaşmanın da ən vacib addımlarından biri MDB-dən yeni üzvlükdən çıxmaqdır. Rusiyanın olduğu heç bir birlikdə Azərbaycan qalmamalıdır. Biz qaldıqca, onların ayağı yer tutur. Bax, ona görə də gəlib bizim üzərimizə, bizdən xəbərsiz öhdəlik qoyurlar ki, guya rus dilini yaşatmalı, inkişaf etdirməliyik.

Bütün bunlar, əlbəttə ki, məqbul deyil. Rusiya rəsmilərinin də iki də bir bu cür fikirlər səsləndirməsi ondan xəbər verir ki, onlar öz xislətlərindən əl çəkən deyillər. Bizə öz xislətindən, imperialist düşüncəsindən əl çəkməyəcək bir dövlətlə bundan sonra eyni yolda yürümək düşərmi? Məncə, düşməz".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# "Türk axını"na qarşı "Hörümçək əməliyyatı"? - Bakıdan reaksiya

## Ekspert: "Bortnikov tərəfindən hədəf olaraq göstərilən Xəzər Boru Kəməri Konsorsiumuna da aiddir"

**"Rusiyada Britaniya və Ukrayna kəşfiyyat xidmətlərinin "Türk axını" qaz kəmərinə qarşı təxribat əməliyyatları hazırlaması barədə məlumat var".**

Belə bir iddianı Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FSB) direktoru Aleksandr Bortnikov irəli sürüb.

Onun sözlərinə görə, Böyük Britaniya ordusunun xüsusi təyinatlı qüvvələrinin (SAS) təlimatçıları və kəşfiyyat xidməti MI-6-nın əməkdaşları Rusiya, Qazaxıstan və ABŞ şirkətlərinin səhmdar olduğu Xəzər Boru Kəməri Konsorsiumuna PUA-larla zərbələr endirmək üçün bir sıra hücumlar planlaşdırıblar: "Bundan əlavə, Kiyev MI-6 ilə birlikdə Ukrayna diversiya qruplarının Rusiyanın sərhədyanı rayonlarına hücumunu hazırlayır".




FSB rəhbəri Rusiyanın mühüm infrastrukturuna qarşı da hücum nəzərdə tutulduğunu iddia edib. Bortnikov qeyd edib ki, Ukrayna hərbi kəşfiyyatının bu yay həyata keçirdiyi "Hörümçək toru" əməliyyatının arxasında da Britaniya kəşfiyyatı dayanıb.

Bu iddiaların əsası varmı? Türkiyənin və Azərbaycanın mümkün reaksiyası nə ola bilər?

Politoloq Yusif Bağırzadə "Yeni Müsavat"a bildirdi ki, Ukrayna son dövrlərdə aktiv şəkildə Rusiyanın enerji sektorunu, qaz və neft infrastrukturunu hədəfə alan əməliyyatlar keçirir: "Rusiyanın maliyyə imkanlarının zəiflədilməsi və Ukraynaya qarşı təcavüzünü davam etdirə bilməməsi üçün həyata keçirilən bu əməliyyatlar təbii ki, öz təsirini göstərir. Belə ki, bu hücumlar nəticəsində Rusiyanın müharibə aparmaq üçün lazım olan neft və qaz hasilatında bir sıra problemlər ortaya çıxmaqla yanaşı daxildə yanacaq qıtlığına və panikaya da səbəb olduğu məlumdur. Eynilə Rusiya da Ukraynanın enerji və qaz nəqli infrastrukturuna davamlı hücumlar təşkil edir ki, xüsusilə də qarşıdan qış mövsümünün gəldiyini nəzərə alsaq bu Ukraynanı olduqca ağır vəziyyətə salır. Konkret Rusiya Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikovun Britaniya və Ukrayna kəşfiyyat xidmətlərinin "Türk axını" qaz kəmərinə hücum planlaşdırdıqlarına dair verdiyi məlumata gəldikdə isə prinsip etibarilə Ukrayna tərəfinin belə bir istəyi ola bilər. Belə ki, Rusiyadan Avropaya təbii qaz təmin edən "Şimal axını 1", "Şimal axını 2" və Yamal-Avropa boru kəmərlərinin bağlanmasından və Ukraynadan qaz nəqlinin dayandırılmasından sonra "Türk axını"nın yeganə tranzit marşrutu kimi əhəmiyyəti artıb".

Politoloq qeyd etdi ki, Rusiyadakı təbii qaz ehtiyatlarını Türkiyəyə, eləcə də bu ölkə üzərindən Avropaya nəql edən "Türk axını" Təbii Qaz Kəməri ilə 5 ildə ümumilikdə 104,1 milyard kubmetr qaz nəql edilib. Bunun 44,4 milyard kubmetri Türkiyənin, 59,8 milyard kubmetri isə Avropanın payına düşür: "Düzdür, digər bazarlara, məsələn, Çinə satılan qazla müqayisədə 5 illik bir müddət üçün "Türk axını" ilə göndərilən qaz elə də böyük həcm təşkil etmir. Amma buna baxmayaraq Rusiyanın xüsusilə Avropaya satılan qaz həcmində əhəmiyyətli yer tutur. Bu qaz kəməri ilə daşının qazın əsas alıcılarının Türkiyə və Avropa ölkələrini olduğunu nəzərə alsaq indi bu kəmərin hədəfə alınması Türkiyə ilə yanaşı Avropanın Rusiya qazına möhtac olan ölkələrində də xüsusilə qış mövsümü qabağı problemlərə yol açacaq. Bu isə təbii ki, həmin ölkələrin Ukrayna ilə münasibətlərində gərginliyə səbəb ola bilər".

Y.Bağırzadənin fikrincə, bu həm də Bortnikov tərəfindən hədəf olaraq göstərilən Xəzər Boru Kəməri Konsorsiumuna (CPC) da aiddir: "Belə ki, CPC neft kəmərləri sistemi Xəzər dənizi hövzəsindən dünya bazarlarına neft nəqli üçün ən böyük marşrutdur. Uzunluğu 1,5 min kilometr olan magistral boru kəməri Qərbi Qazaxıstan yataqlarını Rusiyanın Qara dəniz sahilləri ilə birləşdirir və burada neft CPC-nin dəniz terminalı vasitəsilə tankerlərə yüklənir. Konsorsiumun ən böyük səhmdarları arasında Rusiya və Qazaxıstanla yanaşı, "Chevron", "ExxonMobil", "Shell" kimi şirkətlər də var. Və bu kəmərin hədəfə alınması Rusiyadan başqa adı çəkilən şirkətlər və müvafiq dövlətlərin Ukrayna münasibətlərinə mənfi təsir göstərə bilər. Düşünürəm ki, Türkiyə başda olmaqla ehtimal olunan əməliyyatlardan ziyan çəkə biləcək ölkə və şirkətlər bu məlumatla bağlı Ukrayna tərəfi ilə müvafiq danışıqlar aparacaqlar".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Azərbaycan bu ölkəyə ordu göndərir - Türkiyə isə...

## Ağ Ev sülhməramlılarımızı Qəzzada beynəlxalq qüvvələrin tərkibində görmək istəyir; bəs ekspertlər nə deyir?



**Qəzza zolağında sülhməramlı missiyanın icrasında iştirak üçün əsas namizədlər İndoneziya, Azərbaycan və Pakistandır. Bu barədə ABŞ-dan olan anonim hərbi rəsmisi "Politico"ya bildirib.**

Onun sözlərinə görə, Qəzzada vəziyyətin stabilləşməsində iştirak edəcək bu qüvvələrin formalaşdırılması haqqında danışıqlar gedir və hələlik heç bir ölkə qəti vəd verməyib. Lakin məsələ ilə ən çox maraqlananlar yuxarıda adıçəkilən ölkələrdir.

Mənbə deyib ki, ABŞ Prezidenti Donald Trampın 20 maddəlik planına uyğun olaraq, ABŞ bölgəyə müvəqqəti stabilləşdirici qüvvələr göndərəcək və bu qüvvələr Fələstində polislərə təlimlər keçəcək. Heç bir ABŞ hərbi qüvvəsi Qəzzada olmayacaq.

Ağ Ev, İndoneziya, Azərbaycan və Pakistan səfirlikləri "Politoco"nun sorğusuna cavab verməyib.

Yada salaq ki, az öncə Qəzzada atəşkəslə bağlı İsrail və HƏMAS arasında razılaşma əldə olunub. Razılaşma çərçivəsində girov və məhbus mübadiləsi baş tutub. Lakin İsrail HƏMAS-ın bütün israilli girovların meyitlərini təhvil verməyəcəyi təqdirdə, atəşkəsin davamlı olmayacağı barədə xəbərdarlıq edib.

Bu arada Türkiyə Müdafiə Nazirliyi də beynəlxalq sülhməramlı qüvvələrin tərkibinə kontingent göndərməyə hazır olduğunu bildirib. Yada salaq ki, iki qardaş ölkənin hərbi qüvvələri vaxtilə Əfqanıstanda və Kosovada eyni missiyasını yerinə yetirib.

Hərbi ekspert Səxavət Məmməd "Yeni Müsavat"a söylədi ki, Azərbaycan sülhməramlılarının Qəzzada yerləşməsi ilə bağlı iddialar bəzi əsaslı arqumentlərə söykənir və bu variant real görünür: "Əvvəla, Azərbaycanın sülhməramlı təcrübəsi kifayət qədər zəngindir. Ölkəmiz daha əvvəl NATO çərçivəsində həm Kosovo, həm də Əfqanıstanda sülhməramlı missiyalarda iştirak edib. Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan sülhməramlıları Əfqanıstanda ən çətin yerlərdə xidmət aparırdı. Yeri gəlmişkən, ABŞ ordusu Əfqanıstandan çıxarkən Azərbaycan Türkiyə ilə birgə ən son çıxan qüvvələrdən biri olub. Bu fakt Azərbaycanın təhlükəli və mürəkkəb bölgələrdə uzunmüddətli və effektiv şəkildə xidmət göstərə biləcəyini sübut edir".

Onun sözlərinə görə, ikinci mühüm məsələ Azərbaycanın balanslı xarici siyasətidir: "Azərbaycan həm İsraillə, həm də Fələstinlə münasibətlərini qoruyub saxlayan nadir ölkələrdəndir. Bu cür neytral və diplomatik baxımdan etibarlı mövqe ölkəmizin Qəzzada sülhməramlı kimi qəbul olunmasına şərait yaradır. Yəni tərəflərdən heç biri Azərbaycanı qərəzli vasitəçi kimi görməz".

Bundan əlavə, ekspertə görə, Azərbaycanın müsəlman ölkəsi olması da önəmlidir: "Bu xüsusiyyət Qəzza əhalisi üçün psixoloji baxımdan daha rahat qəbul ediləcək bir faktor kimi çıxış edə bilər. Yerli əhali müsəlman ölkəsinin əsgərlərinə digər ölkələrin nümayəndələrindən daha çox güvən göstərə bilər. Nəhayət, Azərbaycanın Türkiyə ilə yaxınlığı da önəmlidir. Türkiyənin bölgədəki nüfuzu və Azərbaycanla strateji müttəfiqliyi bu cür təşəbbüslərin dəstəklənməsi üçün əlavə imkanlar yarada bilər. Bu səbəbləri nəzərə alaraq demək olar ki, Azərbaycanın Qəzzada sülhməramlı kimi iştirak etməsi həm siyasi, həm hərbi, həm də sosial baxımdan əsaslandırıla bilən bir variantdır. Lakin son qərar BMT, regional aktorlar və tərəflərin razılığı ilə verilə bilər. Əgər Azərbaycan sülhməramlıları Qəzzada xidmət aparacaqlarsa, bu ən ağır və ən çətin yerlərdə olacaq".

Siyasi şərhçi Mübariz Göyüşlünün sözlərinə görə, Azərbaycanın beynəlxalq sülhməramlı missiyada iştirak təcrübəsi zəngindir: "İraqda, Əfqanıstanda sülhməramlılarımız çox yüksək səviyyədə üzərinə düşən missiyanı yerinə yetirib. Bundan başqa, Azərbaycan özü işğalla qarşılaşmış, onu dəf etmiş, müharibə aparmaq kimi ağır sınaqlardan da çıxmış bir dünyəvi türk-müsəlman ölkəsidir. Müharibənin, işğalın, münaqişənin nə demək olduğunu, hansı çətinliklər və problemlər yaratdığını yaxşı bilirik. Buna görə də dünyanın müharibə gedən qaynar nöqtələrində problemin ədalətli həllinə, beynəlxalq hüquq normalarına uyğun çözülməsinə dəstək ola bilərik. Biz torpaqlarımızı işğaldan azad edəndən, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa edəndən sonra qlobal miqyasda sülh və təhlükəsizlik fəaliyyətlərinə töhfə verməkdəyik. İlk imkandaca Azərbaycan istər Rusiya-Ukrayna müharibəsinin, istərsə də İsrail-Fələstin (HƏMAS) müharibəsinin həllində aktivlik göstərir, ədalətli həll yolları təklif edir. Xüsusilə Yaxın Şərqdə problemin həllində Azərbaycan fəallıq göstərməkdədir".

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu hesab edir ki, Ağ Ev Azərbaycanın Qəzzada beynəlxalq qüvvələrin tərkibində təmsil olunmasını istəyir: "Pentaqon həm İsrail, həm də Fələstinlə yaxşı münasibətlərə malik dünyəvi müsəlman ölkəsi olan Azərbaycanın Qəzzaya hərbçilərinin göndərməsinin tərəfdarıdır. Donald Tramp administrasiyasının Azərbaycan Prezidenti İlham Əliyevi Misirdəki sammitə dəvət etməsi də buna dəlalət edir. Azərbaycan hərbçilərinin beynəlxalq qüvvələrin tərkibində Kosovo, İraq və Əfqanıstanda fəaliyyət təcrübəsi var. Ancaq Qəzzada vəziyyət daha mürəkkəbdir. Digər tərəfdən beynəlxalq qüvvələrin Qəzzadakı rolunun nədən ibarət olacağı hələ müəyyənləşməyib. HƏMAS tərksilah olunmasa bölgədə gərginlik yenə artacaq. Bunu ABŞ Prezidenti Donald Trampın və İsrailin baş naziri Benyamin Netanyahunun son açıqlamaları da sübut edir".

Redaktor.az ttps://redaktor.az/-a polkovnik Üzeyir Cəfərov da bildirib ki, Qəzzada yaradılması planlaşdırılan beynəlxalq sülhyaratma missiyasında Azərbaycanın da iştirak edəcəyi ehtimal edilir: "Çünki Azərbaycanın sülhyaratma missiyalarında təcrübəsi var. Biz bir zamanlar Kosovoda, Əfqanıstanda, İraqda, yəni NATO qüvvələri ilə birgə sülhyaratma əməliyyatlarında iştirak etmişik. Niyə də müsəlman ölkəsi olan Azərbaycan bu missiyada İndoneziya, Pakistan və digər ölkələrlə birgə iştirak etməsin? Bildiyim qədərilə, bu missiya baş tutacağı təqdirdə Azərbaycan da ora müəyyən bir kontingent göndərəcək. Yəni "göndərə bilər" yox, düşünürəm ki, göndərəcək. Çünki Azərbaycanın adı son vaxtlar sülhyaratma missiyalarında və ümumilikdə sülhə meylli ölkələr sırasında çəkilir. İndiyə qədər də ölkəmiz dəfələrlə beynəlxalq qurumlar çərçivəsində, xüsusilə də KFOR əməliyyatlarında NATO qüvvələri ilə birgə müəyyən tapşırıqları yerinə yetirib. Azərbaycanın bu sahədə uğurlu göstəriciləri var".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## Zakir Həsənovdan Orduya "hazır ol!" tapşırığı



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə Nazirliyinin rəhbər heyəti Azərbaycan Ordusunun bölmələrinin təminatını və döyüş hazırlığının səviyyəsini yoxlayıb.**

Müdafiə Nazirliyi xəbər verir ki, Komando hərbi hissəsində və digər bölmələrdə olan nazirliyin rəhbərliyi hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı görülmüş işlərin keyfiyyəti və qoşun xidmətinin təşkili ilə tanış olublar.

Yerlərdə hərbi qulluqçular üçün yaradılan şəraitlə tanış olduqdan sonra müdafiə naziri general-polkovnik Zakir Həsənov qışa hazırlıq, bölmələrimizin xidmət və məişət şəraitinin yaxşılaşdırılması, qoşunların döyüş qabiliyyətinin daha da artırılması, silah və texnikaya mövsümi qulluq, həmçinin fasiləsiz təminat üzrə müvafiq vəzifəli şəxslərə əlavə tapşırıqlar verib.

Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirən müdafiə naziri hərbi qulluqçularla görüşüb, onları maraqlandıran mövzularla bağlı söhbətlər aparıb.

Görüşdə müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən uğurlu islahatlardan, dövlət başçısının mötəbər tədbirlərdə iştirak edərkən xalqımızın maraq və mövqeyini qətiyyətlə müdafiə etməsi nəticəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasından danışıb, həmçinin Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları şəxsi heyətə çatdırıb.

Daha sonra hərbi qulluqçular arasında ?nizam-intizama və təhlükəsizlik qaydalarına ciddi əməl olunması, qarşılıqlı münasibətlərin düzgün qurulması, eləcə də şəxsi heyətin sağlamlığına daha həssaslıqla yanaşmaq barədə vəzifəli şəxslərə müvafiq göstərişlər verib.

General-polkovnik Z.Həsənov qoşun xidmətinin təşkili, şəxsi heyətin bütün növ təminatının diqqət mərkəzində saxlanılması, həmçinin təhlükəsizlik qaydalarına ciddi əməl edilməsinə nəzarətin gücləndirilməsi barədə komandir-rəis heyəti qarşısında konkret tapşırıqlar qoyub.

## Qəzzada xəbərdarlıq xətti çəkilir



**İsrail Qəzzada özünün nəzarət etdiyi yeri digər bölgədən fərqləndirmək üçün sarı xətlər çəkib.**

APA xəbər verir ki, bu barədə İsrailin müdafiə naziri İsrael Katz özünün "X" hesabında məlumat verib.

"Mənim göstərişimlə İsrail ordusu Qəzza ərazisinin 50%-ə nəzarət etdiyi bölgədə sarı xətt çəkməyə başlayıb. Bu təhlükəsizlik və siyasi baxımdan Qəzzanı ayıran xəttdir. Bu xətt HAMAS terrorçularına və Qəzza sakinlərinə xəbərdarlıq etmək üçün bir tədbirdir. Kimsə xətti keçməyə çalışsa, atəşlə qarşılaşacaq", - İsrailin müdafiə naziri xəbərdarlıq edib.

YENİ MÜSAVAT
N 189 (8799) 18 oktyabr 2025



# Elton Conun Bülbülə səfəri

Zamin HACI
zaminhaci@gmail.com

**Bu yaxınlarda milli telekanalizasiyalarımızdan biri qadınları təhqir edən süjet yaymışdı. Ondan sonra teleradio şurası həmin kanalı cərimə elədi, ya da töhmət verdi - dəqiq xatırlamıram. Yeri gəlmişkən, həmin şuraya hazırda kim başçılıq edirsə, aktiv çalışdığını, vəzifəsini müəyyən dərəcədə yerinə yetirməyə cəhd etdiyini mütləq yazmalıyam. Çünki ondan əvvəlki Nuşirəvan müəllim heç bir zada dərman deyildi, uzağı bayquşları efir xərabələrinə yığıb söhbət apara bilərdi. İndiki müdir isə hətta arada bəzi telekanalizasiyaları 5-6 saatlıq qapadaraq xalqımıza xidmət göstərir.**

Həmin cərimə mövzusunun yadıma düşməyinin səbəbi isə budur ki, məncə Şura yenidən fəaliyyətə keçməlidir - həmin kanal növbəti dəfə “qatıqlayıbdır”. Mediada süjetləri yayılmışdı, ordan bilirəm. Süjet çox bərbad bir mövzu haqda idi. Hansısa Bakı kəndində uçuq-sökük mədəniyyət evində Qarabağ mövzusunda nəsə mənasız tədbir keçirilib, orda da transgender manıs çıxış yapmışdır. Pah, dəhşət. Hərə əlinə bir yaba, dəhrə götürüb düşüb mədəniyyət evinin üstünə. Ki, niyə siz o cürə patriot işə cinsi azlıq nümayəndəsini qatmısınız. Bax, bizim bu milli telekanalizasiya da qoşulub qara kütləyə, mədəniyyət evinə hücuma keçmişdi.

İnsanların şəxsi həyatını, cinsi oriyentasiyasını müzakirəyə çıxarmaq, təhqir etmək nə insanlığa, nə mədəniyyətə, nə də qəbul olunan qanunlarımıza uyğundur - bunu heç təzədən yazmaqda məna görmürəm. O cümlədən, patriotizmə qalanda, 2-ci savaş vaxtı canını ərazilərimizin azadlığı uğrunda qurban verənlərdən ən azı 1 nəfərin cinsi azlıq olması ortaya çıxmışdı.

Sözgəlişi, hətta biz Qarabağ temasında bütün erməniləri də təhqir edən çıxışlar yapa bilmərik, səbəbi həm də nədir, bilirsinizmi? Çünki bizim anası erməni olan şəhidimiz var! Və biz həmin anaya - Mariya Karapetyana hörmətlə yanaşmağa borcluyuq.

Qayıdaq bir daha o bərbad süjetə. Müxbir böyük mədəniyyətsizliklə (başqa söz yazmaq istədim, onların tayı olmaq istəmədim) mədəniyyət evinin bədii rəhbərini divara dirəmişdi, deyirdi niyə konsertə oxumağa manıs çağıranda onun cinsiyyətini yoxlamamısınız. Vallah, elə belə də deyirdi. Sanki müxbir bunun üsullarını yaxşı bilirmiş. Həmin bədii rəhbər isə mədəniyyət işçisi olsa da, mədəniyyətdən xəbərsiz olduğunu isbat elədi, müxbiri dərhal qovmaq əvəzinə daha cəfəngiyyat izahat verdi: “Onun cinsi azlıq olduğunu oxuyanda bildik, çıxışını yarımçıq saxladıq. Təşkilatçı da cəzalanıb” və sairə.

Bu adamların sanki xəbəri yoxdur ki, dünya şöhrətli Elton Con 2007-ci ilin sentyabrında Bakıda, Bəhramov adına stadionda konsert verib, başda ən yüksək dövlət nümayəndələrimiz olmaq şərtiylə, 32 min nəfər həmin konsertdə iştirak eləyib. Elton müəllim isə, yenə el-aləmə məlumdur ki, homoseksualdır, hətta bir neçə il qabaq başqa kişiyə ərə gedib, uşaq-zad da götürüb ailə kimi yaşayırlar. Özləri bilər, yenə qeyd edirəm, bunun bizə heç bir dəxli yoxdur. Bəs bu ikili standart, lap kəsə yazsaq, ikiüzlülüyün səbəbi nədir? Necə olur ki, Elton Con stadionda konsert verəndə qəbulumuzdur, amma hansısa yetim manıs Bülbülə mədəniyyət evinin kir-pasaqlı salonunda mələyəndə qeyrət-namus yada düşür?

Uzun sözün qısası, Teleradio Şurasından tədbir görməsini gözləyirəm. Kanala cəza verin. İsbat edin ki, hamıya eyni gözlə baxırsınız.



# Qəzza sammitində Araik söhbəti - Bakıdan sərt cavab

## Ermənistan hərbi canilərin azad edilməsi üçün Azərbaycanla danışıqların davam etdiyini açıqladı; Paşinyan hakimiyyəti onların buraxılmasında maraqlıdırmı?

**Bakıda məhkəməsi gedən erməni hərbi canilərin azad edilməsi Şarm əl-Şeyxdə Azərbaycanla müzakirə olunub. Bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzəyan oktyabrın 14-də Finlandiyadan həmkarı ilə birgə mətbuat konfransında deyib.**

“Bu istiqamətdə hər gün iş aparılır. Bəzən bu iş gözə çarpmır, bəzən isə effektiv olmur, yoxsa çoxdan həll olunardı. Amma səylərimizi davam etdiririk və Şarm əl-Şeyxdə Qəzza sülh sammiti çərçivəsində bu məsələni Azərbaycan tərəfdaşlarımızla yenidən müzakirə etdik”, - Mirzəyan deyib.

Nazir Azərbaycan rəsmilərinin reaksiyası barədə bir söz deməsə də, yaxın gələcəkdə bu mövzuda “yaxşı” xəbərlərin olacağına ümidini bildirib.

“Azərbaycanda saxlanılan ermənilərlə bağlı hər gün işləyirik”.

Bunu isə Ermənistanın baş naziri Nikol Paşinyan oktyabrın 16-da jurnalistlərlə söhbətində deyib.

O əmin edib ki, hakimiyyət konkret həll yollarına nail olmaq üçün hər cür səy göstərir. “Bu nəticələr əldə olunmayana qədər mən onları elan etməyəcəyəm”, - o qeyd edib.

Paşinyan həmçinin deyib ki, Azərbaycan prezidenti ilə təmaslar dövri xarakter daşıyır, xüsusən avqustun 8-də imzalanan sənəd nəticəsində “sülhün bərqərar olmasından” sonra. Baş nazir əlavə edib ki, konkret nəticələr olarsa, o da hesabat verəcək.

Ermənistan hakimiyyəti niyə yeri gəldi-gəlmədi, keçmiş xunta rejiminin başında duranların azad edilməsi məsələsini gündəmə gətirir? Qəzza üçün sülh sammitində bu mövzunun müzakirə edildiyi haqda rəsmi Bakıdan bir açıqlama olmasa da, erməni diplomatından sözlərindən belə görünür ki, onların azad edilməsi məsələsi qaldırılıb. Amma bu cinayətkar-terrorçulara hökm çıxarılmayıb.

Həqiqətənmi Paşinyan hakimiyyəti separatçıların azad edilməsində maraqlıdır?

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə “Yeni Müsavat”a bildirdi ki, erməni cəmiyyətində iqtidara bu həbslərlə bağlı basqı var. Onun sözlərinə görə, bu təzyiqləri neytrallaşdırmaq üçün Paşinyan və Mirzəyan belə bəyanatlar səsləndirir. Ç.Qənizadə vurğuladı ki, məhkəməsi gedən ermənəsilli hərbi cinayətkarların barəsində hökm olacaq və bundan yayınmaq mümkün deyil: “Ermənistan Azərbaycanla bu məsələni müzakirə etdiyini bildirir, amma rəsmi Bakıdan belə bir təsdiq yoxdur. Əlbəttə, son görüşlərdə bu məsələni ayaqüstü söhbətdə qaldırmış ola bilərlər. Sadəcə, onların xahişlə sərbəst buraxılması real deyil. Bu adamlar ağır cinayətlərdə ittiham olunurlar. Onlar illərlə Qarabağda dövlətə qarşı çıxıblar, qanunsuz idarəçilik qurublar, xunta rejimi olublar, silahlı birləşmələr saxlayıblar, azərbaycanlı mülki əhalinin qətlində iştirak ediblər, sərvətlərimizi talan ediblər. İndi bu adamları necə azad etmək olar?”

Hüquq müdafiəçisi qeyd etdi ki, yekun sülh müqaviləsi imzalandıqdan sonra diplomatik əlaqələr qurulacağı halda, Bakı və İrəvan onların ekstradisiyasını müzakirə edə bilər: “Bu da yaxın aylarda görünmür. Ermənistan Azərbaycanın sonuncu şərtini hələ parlament seçkilərindən sonra icra etməyə hazırlaşır. Deməli, Araik və digərləri uzun müddət Azərbaycanda həbsdə olacaq. Əslində, onları azad etmək. yaxud Ermənistana təhvil vermək kimi öhdəliyimiz yoxdur. Sadəcə, Paşinyanın çoxsaylı xahişləri ola bilər, paralel olaraq regiona dayanıqlı sülh gəlməsində maraqlıyıq, bu mənada hansısa humanist jest mümkündür. Halbuki Xocalı qatilləri, Gəncəni bombalayan bu cinayətkarlar heç bir humanizmə layiq deyil. Azərbaycanda ölüm hökmü olmadığı üçün onlar yaxşı qurtarıblar. Bako Saakyan kimi canilər edama məhkum olmalıydılar”.

Ç.Qənizadə onu da dedi ki, Ermənistan bu məsələni tez-tez gündəmə gətirir, Avropa Şurasında, Konqresdə müzakirəyə çıxarmağa çalışır, bununla da onların həbsi haqda siyasi don geyindirirlər: “Hərçənd burada hər hansı siyasi motiv yoxdur. Onlar hərbi canilərdir, separatçı-qondarma rejim yaradıblar, terrorçuluqla məşğul olublar, Azərbaycan qanunlarına qarşı gediblər, Ermənistanın və başqa güclərin dəstəyi ilə fəaliyyət göstəriblər. Heç bir ölkə öz ərazisində buna dözə bilməz. Ermənistanın baş naziri ”artsax" adı ilə fəaliyyəti təhdid adlandırır. O zaman biz niyə buna göz yummalıyıq? İndi də beynəlxalq platformalarda təbliğat aparırlar ki, guya bu adamlar hərbi əsirlərdir. Onlar əsir götürülməyiblər, Azərbaycan ərazisində 30 ildən çox qanunsuzluq, cinayətkarlıqla məşğul olublar, indi də dövlət və xalqa qarşısında cavab verirlər. Paşinyan isə maraqlıdır ki, bu caniləri təhvil alsın, daxildə reytinqinə xal qazansın. Halbuki bu qüvvələr revanşistlərlə birləşə bilər".

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Arutyunyan, Arkadi Qukasyan, Bako Saakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası davam etdirilir.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**



# Şahnazaryan: “Nikol II Qaregini devirəcək”

**“Ermənistan Baş naziri Nikol Paşinyan katolikos II Qaregini devirmək planında uğur qazana bilər”. Teleqraf xəbər verir ki, bunu erməni politoloq Qrant Məlik-Şahnazaryan deyib.**

“Son iki gündə baş verən hadisələrdən sonra artıq əmin olmağa başlamışam, təəssüf ki, Nikol kilsəyə qarşı bu mübarizədə uğur qazana bilər. Üstəlik, qarşısına qoyduğu məsələlərin yarısını artıq həll edib. Digər yarısını həll etmək üçün kifayət qədər vaxtı var, tələsməyəcək, yavaş-yavaş, amma ardıcıl işləyəcək. Kilsəyə qarşı kampaniyanın ssenarisi əvvəlcədən hazırlanıb və davamlı şəkildə həyata keçirilir”, - ekspert qeyd edib.

YENİ MÜSAVAT
N 189 (8799) 18 oktyabr 2025

# Prezidentdən mühüm anons - "Makronla görüşdən sonra..."

## Bakı ilə Yelisey sarayı arasında münasibətlərdə yeni mərhələ başlanır

**"Azərbaycanla Fransa arasında anlaşılmazlığa səbəb olan məsələlər keçmişdə qaldı". Bunu Prezident İlham Əliyev Fransanın Azərbaycanda yeni təyin olunan səfiri Sofi Laqutun etimadnaməsini qəbul edərkən bildirib.**

Prezident Kopenhagendə Fransa Prezidenti Emmanuel Makronla görüşünü xatırladaraq həmin görüşün nəticəsində ölkələr arasında anlaşılmazlığa səbəb olan məsələlərin keçmişdə qaldığını deyib. İkitərəfli gündəlikdə yeni dövrün başladığını vurğulayan dövlət başçısı, ilk növbədə, insanlararası və biznes nümayəndələrinin təmaslarının, mədəni, humanitar sahələrdə əməkdaşlığın bərpasının və inkişaf etdirilməsinin önəminə toxunub.

Bəs bundan sonra ikitərəfli münasibətlərdə müsbət dinamika nə dərəcədə və hansı sahələrdə özünü göstərə bilər? Rəsmi Bakı Fransa neomüstəmləkəçiliyindən qurtulmağa çalışan xalqlara dəstəyini davam etdirəcəkmi?



Deputat Azər Badamov "Yeni Müsavat"a deyib ki, Fransa uzun müddət regionumuzda sabitliyin və təhlükəsizliyin yaranmasına qarşı gedərək erməni lobbisinin maraqlarına xidmət edib, Azərbaycana qarşı çox ədalətsiz və qərəzli mövqe sərgiləyib: "Fransa Senatı Azərbaycana qarşı qərəzlə dolu qətnamələr qəbul etdi. 44 günlük Vətən müharibəsi dövründən başlayaraq beynəlxalq təşkilatlara Azərbaycana qarşı sanksiyalar qəbul etdirməyə çalışdı. AŞ PA-da müəyyən deputatları ələ alaraq Azərbaycana qarşı təzyiqlər göstərməyə çalışdı. Amma Azərbaycan özünün ədalətli mövqeyindən geri çəkilmədi və adekvat addımlarını atdı. Təbii ki, mövqeyimizin dəyişilməməsi bizə qarşı qərəzli anti-Azərbaycan kampaniyası aparanların özlərinin müəyyən çətinliklər yaşamasına yol açdı. Azərbaycanın dəyişilməz mövqeyi 8 avqustda Vaşinqtonda imzalanmış sazişlərlə Ermənistanla sülh gündəliyinin təsdiq olunması ilə nəticələndi. Bu gün Azərbaycan və Ermənistan üçüncü tərəfin təşəbbüsü olmadan müxtəlif platformalarda görüşür və məsələləri müzakirə edir. Təbii ki, Fransanın bu dövrdəki bütün cəhdləri çox uğursuz oldu və Azərbaycanla Fransa arasındakı münasibətləri aşağı səviyyəyə endirdi. Bu gün regionumuzda yaranmış sülh gündəliyini Fransa da qəbul etməyə və mövqeyimizlə razılaşmağa məcbur olub. Dövlət başçılarının Kopenhagen və Şarm-əl Şeyxdəki görüşləri iki ölkə arasında münasibətlərdə yeni bir səhifənin açıldığını deməyimizə imkan verir. Prezident İlham Əliyev Fransanın Azərbaycana təyin olunmuş səfiri Soft Laqutun etimadnaməsini qəbul edərkən ölkələr arasında anlaşılmazlığa səbəb olan məsələlərin keçmişdə qaldığını deyib. İkitərəfli gündəlikdə yeni dövrün başlandığını vurğulayan dövlət başçısı, ilk növbədə, insanlararası və biznes nümayəndələrinin təmaslarının, mədəni, humanitar sahələrdə əməkdaşlığın bərpasının və inkişaf etdirilməsinin önəminə toxunub. Qeyd etmək istəyirəm ki, Azərbaycanla Fransa 2020-ci ilin sentyabrına qədər hərtərəfli əməkdaşlıq edirdi. Əməkdaşlığımız neft, sənaye, aerokosmik, humanitar, mədəni və digər sahələr üzrə genişlənirdi. İndi münasibətlərimizdə açılmış yeni dövrdə fikir ayrılığı yaradacaq məsələlərin qalmadığını hesab edirəm. Bu baxımdan əməkdaşlığımız yenidən hərtərəfli strateji əməkdaşlıq səhifəsinə yüksələcəyinə ümid edirəm".

Siyasi təhlilçi Sona Əliyeva qarşıdakı zamanda ölkələri ciddi hədəflərin gözlədiyini vurğuladı: "Fransa başa düşür ki, Azərbaycanla münasibətləri yaxşılaşdırmadan Güney Qafqazda möhkəmlənmək mümkün deyil. Ona görə də Paris Bakı ilə soyuqlaşan münasibətlərində ciddi redaktə etməyə qərar verdi. Bu da Yeliseylə Bakı arasında yeni bahar döneminin başlayacağına işarədir. Düşünürəm ki, münasibətlərə yenidən baxmaq qərarı məhz prezident Makron tərəfindən irəli sürülüb. Fikrimcə, hadisələrin gedişatı, Azərbaycanın geostrateji nüfuzunun hər an yüksəldiyi bir dövrdə Emmanuel Makron erməni lobbisinin təkidlərinin və İrəvanın mənasız istəklərinin üzərindən xətt çəkməyi bacardı. Digər tərəfdən, Fransanın iddia etdiyi kimi, Zəngəzurda eskalasiya baş vermədi. Əksinə, 8 avqustda Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması ilə bağlı niyyət sazişi imzalandı. Belə olan halda, Fransa Azərbaycana qarşı əvvəlki sərt mövqeyini davam etdirsəydi, o zaman bütün oyunlardan kənarda qalardı. Hətta bu özünütəcrid anlamına gələrdi. Ona görə də rəsmi Paris yenidən yönünü Bakıya tərəf çevirdi. Ölkə başçısı da vurğulayıb ki, artıq Fransa ilə soyuq münasibətlər dövrü arxada qalıb. Bu o deməkdir ki, hər şey arxada qalır və sadəcə irəli baxmaq lazımdır. İrəlidə isə Azərbaycan və Fransanı daha böyük hədəflər gözləyir. Bu hədəflər əsasən böyük iqtisadi layihələrlə bağlıdır və Fransa Azərbaycanı artıq böyük oyunçu kimi qəbul etdiyi üçün Paris Bakı ilə yanaşı addımlamaq istəyir və ən əsası, Makronun simasında bu niyyətini gizlətmir".

Modern.az-a açıqlamasında isə deputat Kamran Bayramov bildirib ki, Fransa ilə müəyyən təmaslara başlamağımız yaxşı haldır:

"Son 2-3 ildə Fransanın Azərbaycana qarşı qərəzli mövqeyi, ikitərəfli münasibətlərə çox böyük mənfi təsir göstərdi. Bu da Fransanın Azərbaycanla Ermənistan arasında danışıqlara müdaxilə cəhdləri, eyni zamanda Ermənistanı silahlandırması ilə bağlı idi. Fransa bir çox beynəlxalq təşkilatlarda Azərbaycana qarşı qərəzli kampaniya apardı. Təbii olaraq, Azərbaycan tərəfindən mütənasib qaydada Fransaya qarşı tədbirlər görüldü, bəyanatlar səsləndirildi. Və xarici siyasət xətti bu minvalla davam etdirildi. Buna baxmayaraq, Azərbaycan ikitərəfli münasibətlərdə istənilən dövlətlə siyasi dialoq üçün meydan saxlayır, həmişə qapını tam örtmür. Fransa ilə münasibətlər məsələsində də biz bunu deyə bilərik. Onu da qeyd edək ki, Azərbaycan-Fransa münasibətlərinin bu cür səviyyəyə çatdırılmasında, məhz Fransa Prezidenti Emmanuel Makron və onun yeritdiyi xarici siyasət durur. Amma cənab Prezident tərəfindən Fransanın yeni səfiri Sofi Laqutun qəbul edilməsi onu deməyə əsas verir ki, soyuq münasibətlər dövrü keçib getməkdədir".

Deputat düşünür ki, Fransa ilə həm hökumət, həm də parlament səviyyəsində təmaslar bərqərar olacaq:

"Bu münasibətlər cənab Prezidentin də dediyi kimi, ilk növbədə insanlar və biznes nümayəndələri arasında olan təmasların qurulması, mədəni-humanitar sahədə əməkdaşlığın bərpası və genişləndirilməsi kimi məsələlərdən başlanılmalıdır. Məlumdur ki, hər iki ölkənin parlamentlərinin dostluq qrupları fəaliyyətini dayandırıb. Mən düşünürəm ki, növbəti mərhələdə deputatlar səviyyəsində də təmasların bərpa olunmasından danışa bilərik. Hazırda cənab Prezidentin Fransa səfirini qəbulu zamanı qeyd etdiyi kimi, insanlar və biznes dairələri arasında münasibətlərin qurulması, çox güman ki, ilk planda dayanır. Bu görüşdən sonra hesab edirəm ki, münasibətlərdə də gedəcək. Müəyyən əlaqələr də bərpa olunacaq. Bu yenə də Fransadan asılı olacaq. Fransa Azərbaycanla təhdid və diqtə dili ilə danışmağın mümkün olmadığını anlasa və bizimlə bərabərhüquqlu, hörmət əsasında münasibətlərə üstünlük versə, onda təbii ki, Azərbaycan da bu münasibətlərə lazımi qiymət verəcək. Və bu, əməkdaşlığa, qarşılıqlı əməkdaşlığa öz töhfəsini verəcək".

❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"

## Rusiya daha bir diaspor rəhbərini həbs etdi



**Rusiya Smolensk vilayətinin Azərbaycan Milli Konqresinin lideri, Azərbaycan əsilli iş adamı Faiq Əliyev rüşvət vermək ittihamı ilə 4 il həbs cəzası alıb və 8,4 milyon rubl cərimə edilib.**

APA-nın Rusiya bürosu xəbər verir ki, Smolensk şəhərinin Leninski rayon məhkəməsi müəyyən edib ki, Faiq Əliyev "Prestij" restoran-mehmanxana kompleksinin faktiki elektrik xərclərini gizlətmək üçün energetiklərə rüşvət verib.

Rüşvət məhkəmə tərəfindən sübuta yetirildiyi kimi 846 500 rubl təşkil edib. Elektrik enerjisi üzrə borclar 994.000 rubl təşkil edib. Cinayət 13 mart 2020-ci il və 6 dekabr 2024-cü il tarixləri arasında törədilib.

Sahibkarın müdafiə komandası hökmdən Smolensk vilayət məhkəməsinə şikayət vermək niyyətindədir. Əliyevin vəkillərindən başqa, Smolensk vilayəti İctimai Palatasının Millətlərarası və Dinlərarası Münasibətlərin Uyğunlaşdırılması Komissiyasının sədri Yelena Ulyanenkova da daxil olmaqla, ictimai müdafiəçiləri də olacaq.

"Mən 28 ildir ki, onunla ictimai işlərdə işləyirəm və onu saysız-hesabsız insanlara kömək edən vicdanlı və layiqli bir insan kimi tanıyıram. 2014-cü ildə o, qaçqınlara kömək edib. Onun ehtiyacı olanlara təmənnasız yardım göstərməsinə minlərlə misal göstərmək olar. O, xüsusi hərbi əməliyyata təxminən 3 milyon rubl göndərib. 28 ictimai təşkilatın daxil olduğu Milli Konqresin üzvləri Faiq Zakiroviçə qarşı yumşaq cəza tələb edir", - Ulyanenkova bildirib.

## Fransa təyyarəsi ilə qaçdı, yerinə o keçdi



**Madaqaskar Silahlı Qüvvələrinin polkovniki Maykl Randrianirina Ali Konstitusiya Məhkəməsi (SCC) tərəfindən ölkənin keçid dövrü prezidenti kimi and içib.**

Teleqraf xəbər verir ki, inauqurasiya mərasimi milli televiziya kanalı (TVM) ilə yayımlanıb.

Mərasimdə siyasi partiyaların liderləri, ABŞ, Almaniya, Fransa və Avropa İttifaqı səfirləri iştirak ediblər.

Sentyabrın 25-də Madaqaskarda Prezident Andri Radzuelinanın istefası tələbi ilə etirazlar başlayıb. O, istefa verməkdən imtina etsə də, sonradan ölümlə hədələndiyini iddia edərək Fransa təyyarəsi ilə ölkədən qaçıb. Dövlət başçısının olmaması səbəbindən oktyabrın 14-də Madaqaskar Ali Konstitusiya Məhkəməsi Milli Assambleyanın (parlamentin aşağı palatası) qərarı ilə onun hakimiyyətdən kənarlaşdırılmasını təsdiqləyib. Məhkəmə ölkəyə rəhbərlik etmək üçün prezident sarayını ələ keçirən hərbçilərin lideri, polkovnik Maykl Randrianirinanın namizədliyini irəli sürüb.

Yeni MÜSAVAT
N 189 (8799) 18 oktyabr 2025

# Milli Məclisin bayram iclasında gərginlik

## 18 oktyabr müzakirəsi deputatlar arasında mübahisəyə səbəb oldu, parlamentdə Ramiz Mehdiyevdən danışıldı



**Oktyabrın 17-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirildi. Spiker bildirdi ki, iclasımız tarixi bir günün ildönümü ərəfəsində keçirilir: “34 il öncə, 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti dövlət müstəqilliyimizin bərpasını elan edib. Bir əsr ərzində ikinci dəfə xalqımız müstəqil dövləti qurmaq imkanına nail olub.**

Amma müstəqilliyi əldə etmək az idi, onu qoruyub saxlamaq da lazım idi. Təəssüf ki, yeni yaranmış dövlətin idarə edilməsində, daxili və xarici siyasətin həyata keçirilməsində kobud səhvlərə yol verilib. Ermənistanın silahlı təcavüzü, torpaqlarımızın işğalı, yüz minlərcə soydaşımızın yurdlarını tərk etməsi ciddi problemlər yaratmışdı. İqtisadiyyat dağılır, anarxiya və özbaşınalıq genişlənirdi. Biz hamımız bu hadisələrin şahidi olmuşuq. Daxili mübarizəyə başı qarışan səriştəsiz iqtidar dövlətçiliyimizi müdafiə etməyə qadir deyildi. Ölkəmiz vətəndaş müharibəsinin astanasında idi. Dövlət müstəqilliyinin itirilməsi təhlükəsi real şəkil almışdı. Məhz bu ağır vəziyyətdə xalqımız yenidən öz müdrik liderinə üz tutdu. 1993-cü ilin iyun ayında dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması tariximizin dönüş nöqtəsi oldu. Heydər Əliyev təkcə ölkəni fəlakətdən xilas etmədi, həm də onu yenidən qurdu. Ümummilli Liderimizin həyata keçirdiyi milli qurtuluş missiyası nəticəsində Azərbaycan böyük təhlükələri aradan qaldırdı və davamlı inkişaf yoluna qədəm qoydu. Müasir dövlətçiliyin, iqtisadiyyatın, hüquq sisteminin, ordunun möhkəm təməlləri yaradıldı. Ulu Öndər insanların öz gələcəyinə, dövlətinə və xalqına inamını qaytardı. Məhz Heydər Əliyevin fəaliyyəti sayəsində müstəqillik ideyası real məzmun kəsb etdi və dayanıqlı dövlətçilik sisteminə çevrildi. Milli suverenliyin möhkəm siyasi-hüquqi əsasları formalaşdırıldı. Ulu Öndər sübut etdi ki, güclü dövlət, səmərəli qanunlar və vətəndaş məsuliyyəti olmadan həqiqi müstəqillik mümkün deyil. Bu baxımdan 2025-ci ilin Konstitusiya və Suverenlik ili elan olunması da Heydər Əliyev ideyalarının və əməllərinin təntənəsini ifadə edir".

S.Qafarova bildirdi ki, Ulu Öndərin strateji xəttini layiqincə davam etdirən möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi müasir dünya dövləti olan Azərbaycanın qurulmasını təmin edib: “Ötən 22 il ərzində ölkəmiz sabitlik və inkişaf məkanına çevrilib. İndi Azərbaycan amili regional təhlükəsizliyin və iqtisadi əməkdaşlığın mühüm şərtidir. Biz 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında tarixi qələbələr qazanmışıq. Ərazi bütövlüyümüzü və dövlət suverenliyimizi bərqərar etmişik. Bu gün Azərbaycan Respublikası beynəlxalq platformalarda səsi eşidilən, öz sözünü inamla söyləyən bir dövlətdir. Təkcə son yarım ay ərzində baş vermiş beynəlxalq hadisələr də bir daha nümayiş etdirdi ki, Azərbaycanın qlobal siyasi dialoq sistemində sanballı yeri var”.

Spiker çıxışında Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyətinin oktyabrın 13-də və 14-də Pakistan İslam Respublikasında işgüzar səfəri barədə məlumat verdi. Bildirdi ki, səfərin məqsədi Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşündə iştirak etmək idi. Xatırlatdı ki, Parlament Sədrlərinin birinci görüşü Azərbaycanda, ikinci görüşü Türkiyədə, üçüncü görüşü isə Pakistanın paytaxtı İslamabadda keçirilib.

Çıxışının yekununda sədr Müstəqilliyin bərpası Günü münasibətilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya məktublar ünvanlamağı təklif etdi. Deputatlar təşəbbüsü alqışlarla qarşıladılar.

Cari məsələlərlə bağlı müzakirələr zamanı komitə sədrləri Fazil Mustafa, Siyavuş Novruzov, deputatlar Məlahət İbrahimqızı, Bəxtiyar Əliyev, Aydın Mirzəzadə, Elman Nəsirov, Sahib Alıyev, Tənzilə Rüstəmxanlı, Ceyhun Məmmədov, Fariz İsmayılzadə çıxış etdilər.

Komitə sədri Fazil Mustafa 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü ilə bağlı təbriklərini çatdırdı. Ardınca demoqrafik məsələlərə diqqət çəkdi. Həmçinin bu məsələ ilə bağlı ciddi narahatlıq doğuran faktları xatırlatdı: “Statistikada qeyd olunur ki, son 5 ildə Azərbaycanda 83 min nikahdankənar uşaq doğulub. 9 min uşağı 15-19 yaşlı qızlar dünyaya gətirib. Bu, ailə institutu üçün olduqca böyük faciəvi problemdir. Biz bu istiqamətdə cəmiyyətdə ictimai müzakirə yaratmalıyıq. Necə etməliyik ki, ailə institutunu qoruya bilək?”

Deputat Məlahət İbrahimqızı bildirdi ki, bu günlərdə ictimaiyyət arasında və mediada ən çox müzakirə edilən mövzu Səbail Rayon Məhkəməsinin qəbul etdiyi qərardır: “Mətbuatda da dərc edildiyi kimi, məhkəmənin qərarına əsasən, CM-in 274-cü maddəsi - dövlətə xəyanət, 278-ci maddə - hakimiyyəti zorla ələ keçirmə və 193-1-ci maddə - cinayət yolu ilə əldə edilmiş vəsaitlərin leqallaşdırılması ağır cinayətləri işləri üzrə Ramiz Mehdiyev barəsində 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçilib. Azərbaycan xalqı çox gözəl bilir ki, Ramiz Mehdiyev kimi yüzlərlə cılız və hakimiyyət hərisləri olsa belə, iki yüz illik dünya erməniliyini, erməni lobbisini və işğalçı Ermənistanın arxasında dayanan super gücləri 44 gün ərzində məğlub edən Müzəffər Ali Baş Kamandanımızın dəmir yumruğu qarşısında çox acizdirlər. Azərbaycan xalqı hətta ölkəmizin ən çətin günlərində - 1994 və 1995-ci illərdə dövlət çevrilişlərində belə Ulu öndərimiz Heydər Əliyevin ətrafında sarsılmaz birlik numayiş etdirib. Dövlət çevrilişinə cəhd edən, hakimiyyəti zorla ələ keçirmək istəyən bu cinayətkar qüvvələr öz çirkli əməlləri ilə həm də Dövlətimizin Qurucusu, bütün həyatını Azərbaycan xalqının rifahına və dövlət müstəqilliyimizin sarsılmazlığına xidmət etmiş Heydər Əliyevə, Azərbaycan Xalqını dünyada Qalib Xalq kimi tanıdan və beynəlxalq aləmdə dövlətimizə böyük imic qazandıran İlham Əliyevə və azadlığımız, müstəqilliyimiz, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canlarından keçmiş əziz şəhidlərimizin ruhuna qarşı xəyanətdədir.

Sözsüz ki, Azərbaycan xalqı və gələcək nəsillər bu xəyanəti heç vaxt bağışlamayacaq!

Şübhəsiz ki, kimliyindən və tutduğu mövqedən asılı olmayaraq, dövlətçiliyimizə, dövlət başçısına xəyanət edən hər kəs, eləcə də Ramiz Mehdiyev və onun silahdaşları qanun qarşısında cavab verəcək.

Azərbaycan xalqı və ictimaiyyəti öz dövlətinə və Prezidentinə inanır, güvənir və hər zaman onun ətrafında sarsılmaz birlik nümayiş etdirir, bu birlik belə də davam edəcək". Deputat həmkarlarına H.Əliyevin məşhur ifadəsi ilə xitab etdi: “Mövqeyinizi bildirin!”

Komitə sədri Siyavuş Novruzov Heydər Əliyev yolu və daha sonra onun siyasi xəttini davam etdirən İlham Əliyev yolundan danışdı. Bildirdi ki, Misirdə, cənab Prezidenti əhatə edən dünya liderlərini görərkən Heydər Əliyevi xatırlayıb: “Mən dəfələrlə Ümummilli Lideri xarici səfərlərdə müşayiət etmişəm. Hər kəs onunla görüşməyə can atırdı”. Bildirdi ki, o zaman Azərbaycan dövəti indiki kimi güclü deyildi, amma Heydər Əliyev şəxsiyyəti, böyüklüyü var idi. “Misirdəki Sammitdə Prezident Tramp dedi ki, İlham Əliyevlə düşmənçilik etməyin, onunla ancaq dost olmaq olar. Fransa prezidenti cənab Prezidentdən üzr istədi. Bu gün xoşbəxtik ki, belə bir prezidentimiz, rəhbərimiz var. Bütün dünya onunla hesablaşır. Balaca dövlət olmağımıza baxmayaraq, böyük şəxsiyyətimiz var. Allah onu qorusun”.

İclasda “Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi”nin təsdiq edilməsi haqqında" qanun layihəsi müzakirəyə çıxarılaraq, tək oxunuşda qəbul edildi. Saziş 2025-ci ilin 9 iyulunda Əbu-Dabi şəhərində imzalanıb.

Deputatlar Zaur Şükürov və Səməd Seyidov layihəni dəstəklədikdən sonra səsvermə ilə qəbul olundu.

İclasda çıxış edən deputat Tənzilə Rüstəmxanlı 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə təbriklərini çatdırdı. Daha sonra o, başda Ulu öndər Heydər Əliyev olmaqla, Azərbaycanın müstəqilliyinin bərpasına səs verən 43 millət vəkilini sayğı ilə andığını vurğulayıb və bildirib ki, onların xidmətlərini unutmaq olmaz.

Ardınca komitə sədri Siyavuş Novruzov çıxışa yazılaraq xanım həmkarının fikirlərinə reaksiya verdi. Bildirdi ki, Azərbaycanın müstəqilliyinə o zaman Ali Sovetin üzvü olan 350 nəfərdən 271 nəfər səs verib, iclasa da Ziyad Səmədzadə sədrlik edib. S.Novruzov həmin 43 nəfərin isə referendum əleyhinə səs verdiklərini xatırlatdı:

“Müstəqillik başqa şeydir, referendum əleyhinə başqa şeydir. Tarixi saxtalaşdırmayaq, tarix düzgün yazılmalıdır. İclasa Ziyad Səmədzadə sədrlik edib və 350 nəfər parlament üzvündən 271 nəfəri Azərbaycan müstəqilliyinin bərpasına səs verib”.

“Çıxışlarda bəzi nöqsanlar olur. Buradakı çıxışlarda da bəzi nöqsanlar oldu. Mən sonra sizinlə ayrı bir məsələni də danışacam”,- spiker Sahibə Qafarova reaksiyasında bildirdi.

Növbəti məsələlərin müzakirəsi zamanı söz alan T.Rüstəmxanlı yenidən bu mövzuya qayıtdı: “Sahibə xanım, mənim sizə çox böyük hörmətim var, amma buna cavab verməsəm olmaz. Çünki Siyavuş Novruzov məni saxtakar adlandırdı. 1991-ci ildə 7 mart iclası SSRİ-nin bərpa edilməsinə dair referendumun keçirilməsi ilə bağlı idi, Heydər Əliyevin də təmsil olunduğu 43 nəfər həmin referendumun əleyhinə səs verdi. Mən onu vurğulamağa çalışıram. Mən bu prosesin içindəydim, qadınlarımız ön sırada idi. Mən çox istərdim ki, Siyavuş Novruzov dövlət çevrilişində ittiham olunan Ramiz Mehdiyevin əleyhinə 10 il əvvəl danışıb tarix yazardı”.

S.Novruzov növbəti dəfə söz istəsə də, spiker Sahibə Qafarova çıxışa ehtiyac görmədi və bu mövzuların plenar iclasda müzakirəsini düzgün hesab etmədi.

Milli Məclisin iclasında “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə" və “Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanununun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı. Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev layihə haqqında məlumat verdi və layihə ilk oxunuşda təsdiqləndi.

❑ **Elşad PAŞASOY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 189 (8799) 18 oktyabr 2025

# Araz dəhlizi işə düşür - Zəngəzur dəhlizi isə...

## İran istəyir ki, Azərbaycan daha çox bu logistikadan istifadə etsin - ekspertdən şərh

**Azərbaycanın geosiyasi və nəqliyyat xəritəsində yeni bir mərhələ başlanır. Baş nazirin müavini Şahin Mustafayevin açıqlamasına görə, Araz çayı boyunca İran ərazisindən keçəcək avtomobil yolunun tikintisi gələn Novruza qədər tamamlanacaq. Bu marşrutun istifadəyə verilməsi təkcə Naxçıvan Muxtar Respublikasının blokadadan çıxması deyil, eyni zamanda regionun geoiqtisadi strukturunun dəyişməsi anlamına gəlir.**

Yeni yol Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək və "Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərinin mühüm komponentinə çevriləcək. Həm də "Araz dəhlizi" adlandırılan bu marşrut Zəngəzur dəhlizindən cəmi 10 kilometr uzun olacaq, lakin siyasi və praktiki baxımdan real və işlək alternativ sayılır.

Bu layihə İran ərazisi vasitəsilə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvanı birləşdirəcək, Kəlalə-Ağbənd-Cəbrayıl-Füzuli-Ağdam-Yevlax-Gəncə-Tbilisi-Batumi istiqamətini əhatə etməklə Fars körfəzi ilə Qara dənizi birləşdirəcək. Beləliklə, Araz dəhlizi yalnız Azərbaycanın daxili əlaqəsini bərpa etmir, həm də regionun mühüm tranzit qovşaqlarından birinə çevrilir.

Prezident İlham Əliyev aprelin 28-də keçirilmiş Azərbaycan-İran biznes forumunda layihənin strateji əhəmiyyətini bir daha vurğulayaraq qeyd etmişdi ki, Araz dəhlizi ilə bağlı yayılan müxtəlif fərziyyələr əsassızdır. Onun sözlərinə görə, bu, sırf iqtisadi və nəqliyyat yönümlü bir təşəbbüsdür: "Bu, Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə İran ərazisindən birləşdirən bir layihədir".



Hazırda Ağbənd-Kəlalə avtomobil körpüsü və ona bitişik yolun tikintisi intensiv şəkildə davam edir və 2025-ci ilin sonunadək tamamlanması nəzərdə tutulur. Bu, Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan arasında ən qısa və təhlükəsiz nəqliyyat bağlantısını yaradacaq. Layihə həmçinin Çin-Mərkəzi Asiya-Azərbaycan-İran-Türkiyə xəttini birləşdirən "Şərq-Qərb" dəhlizinin mühüm hissəsi olacaq, eyni zamanda "Şimal-Cənub" xəttinin keçid imkanlarını genişləndirəcək.

Fars körfəzini Qara dənizlə birləşdirən bu marşrut, həm relyef, həm də iqlim baxımından ən əlverişli avtomobil yolu sayılır. Tikilən yol I texniki dərəcəyə malik olacaq və Ağbənd-Cəbrayıl-Ağdam-Yevlax-Gürcüstan istiqamətində səmərəli yük və sərnişin daşımalarına şərait yaradacaq. Paralel olaraq, Ağbənd-Laçın-Kəlbəcər-Gəncə-Gürcüstan avtomobil xətti də təxminən bir il ərzində tamamlanacaq.

Beləliklə, Araz dəhlizi təkcə Azərbaycanın Naxçıvanla birbaşa əlaqəsini bərpa etmir, həm də regionun logistika xəritəsini yenidən formalaşdırır. Əgər Zəngəzur dəhlizi Ermənistanın siyasi oyunları ucbatından illərlə reallaşdırıla bilmirsə, Araz dəhlizi artıq praktik mərhələyə keçib və Azərbaycanın iqtisadi, siyasi, həm də strateji üstünlüyünü daha da möhkəmləndirir. Bu, həm Naxçıvanın blokadadan çıxması, həm də Cənubi Qafqazda güc balansının yenidən Azərbaycan xeyrinə dəyişməsi deməkdir.

Araz dəhlizi artıq reallaşmaq üzrədir. Baş nazirin müavini Şahin Mustafayevin açıqlamasına görə, Araz çayı boyunca İran ərazisindən keçəcək avtomobil yolunun tikintisi gələn Novruza qədər tamamlanacaq.

Bəs dəhlizlə gediş-gəliş qiymətləri, tariflər necə olacaq? Ən əsası, Zəngəzur dəhlizinin işə düşməsi ilə Araz dəhlizi əhəmiyyətini itirə bilərmi?

İqtisadçı-ekspert Akif Nəsirli "Yeni Müsavat"a açıqlamasında bildirib ki, konkret rəqəmlər səsləndirmək çətindir: "İran da başa düşür ki, Zəngəzur dəhlizi Araz dəhlizinə alternativdir. İran istəyir ki, Azərbaycan daha çox Araz dəhlizindən istifadə etsin. Ona görə də bu faktor qiymətlərin minimum olacağına əsas verir. İran istəyir ki, dəhlizə maraq daha böyük olsun.

Zəngəzur dəhlizi ilə Araz dəhlizinin uzunluğunda 10 km fərq var. Təxminən 42-43 km Zəngəzur dəhlizidir, Araz dəhlizi isə Azərbaycan sərhədindən Naxçıvan sərhədinə qədər 53 km-dir. İran qiymət qoyma mərhələsində rəqabəti nəzərə alanda bu məsələni də yəqin ki, diqqətdə saxlayacaq. Bu da Araz dəhlizində qiymətlərin aşağı salınması üçün ciddi faktordur".

Ekspert bildirir ki, Zəngəzur dəhlizi Azərbaycanın istədiyi qaydada işə düşəndən sonra bu zaman Araz dəhlizinin aktuallığı azala bilər. Amma bununla belə biz nəzərə alaq ki, Orta dəhliz layihəsinin davamı olaraq bu iki alternativ dəhliz yaranacaq. Bu zaman bəzi ölkələr İran üzərindən keçən Araz dəhlizindən istifadə etməkdə maraqlı olacaqlar. Buraya Orta Asiya ölkələrini aid etmək olar. Bu ölkələr İranla əlaqə məqsədi ilə Azərbaycana qədər eyni dəhlizlə gələcək, amma Azərbaycandan sonra İran üzərindən keçən Araz dəhlizindən istifadə edəcək. Bu, ümumi qaydadır. Əgər Zəngəzur dəhlizinə Azərbaycanın istədiyi formada, yəni maneəsiz hərəkət statusu verilməyəcəksə, o zaman Azərbaycan üçün Araz və Zəngəzur dəhlizi arasında seçim etmək imkanı olacaq. Məsələn, Ermənistanla nə qədər ki, münasibətlərimiz normallaşmayıb o zaman Azərbaycan şirkətləri daha çox Araz dəhlizinə üstünlük verəcəklər. Lakin beynəlxalq statusa görə Zəngəzur dəhlizinə daha çox ehtiyac var".

❑ **Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

# "Georgiyev lentli" Səmədovun işi ağırlaşır

## Mehdiyev prosesində adı keçən "rusbaş"la bağlı yeni qərar gözlənilir - hüquqşünas rəyi

**Xəbər verildiyi kimi, Təhlükəsizlik Şurasının üzvü, Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllərinin və dövlətə xəyanətinin detalları məlum olub. APA etibarlı mənbələri vasitəsilə öyrənib ki, Ramiz Mehdiyev Rusiyanın dəstəyi ilə dövlət çevrilişi etməklə bağlı plan hazırlayıb və bunu öz kanalları vasitəsilə Rusiyaya təklif edib.**

Mehdiyev Azərbaycanla Rusiya arasında münasibətlərdə AZAL təyyarəsinə görə yaranmış gərginlik dövründən faydalanmağa çalışıb. "Boz kardinal" vəziyyətdən istifadə edərək, öz kanalları və köhnə dostları vasitəsilə Rusiyaya dövlət çevrilişi planının hazır olduğunu, bu məsələdə Moskvadan dəstək gözlədiyini çatdırıb.

Məlumdur ki, məhz Rusiya-Azərbaycan münasibətlərində gərginlik pik həddə olanda - bu il mayın 9-da İmişli Rayon Ağsaqqallar Şurasının sədri Saleh Səmədov SSRİ bayrağı altında, sinəsində rus imperiyasının rəmzi olan "Georgi lenti" ilə tədbir təşkil etmişdi. İddiaya görə,




S.Səmədov Mehdiyevin köhnə dostlarından və biznes ortaqlarından biridir. O, sözügedən tədbirdən az sonra Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 179-cu maddəsi ilə ("mənimsəmə və ya israf") ittiham irəli sürülüb. Oktyabrın 6-da məhkəmənin qərarı ilə Saleh Səmədov barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti 3 ay uzadılıb.

Qeyd edək ki, may ayında Saleh Səmədovun qardaşları ilə bağlı bəzi maraqlı faktlar da üzə çıxıb. Sabiq sədrin qardaşı Atababa Səmədov 2018-ci ildə dələduzluğa görə həbs edilib. A.Səmədov ayrı-ayrı şəxslərə qarşı müxtəlif vaxtlarda ümumi məbləği 320 min ABŞ dolları miqdarında dələduzluq edib. O, aldatdığı şəxslərə aldığı pulların müqabilində tikinti materialları gətirəcəyinə söz verib. Daha sonra onun barəsində həbs qətimkan tədbiri seçilib. Saleh Səmədovun kiçik qardaşı Sahib Səmədov isə işində yol verdiyi nöqsanlara görə işdən çıxarılıb.

Bu ilin may ayında axar.az saytında yazılan məlumata əsasən, S.Səmədov bu il yol hərəkəti qaydasını ciddi şəkildə pozduğu üçün yol polisi tərəfindən saxlanılıb. Yol polisi əməkdaşı ondan sənədlərini tələb edib. S.Səmədov isə həm polisi, həm də rayon polis şöbəsinin rəisi Azər Tağıyevi ağır söyüşlərlə, bir insana, xüsusilə "ağsaqqal" adına yaraşmayan ifadələrlə təhqir edib. Bildirib ki, rayonun rəisi belə onun maşınını saxlatdırmağa cəsarət edə bilməz. Onun təhqirləri, rayon rəhbərliyi, polis rəisi və hüquq-mühafizə orqanları haqda dediyi nalayiq ifadələr hamısı kamera qeydlərində var. Saleh Səmədov hərınlığı və bu təhqirlərinə görə İmişli RPŞ-nin rəisi polkovnik Azər Tağıyevin təkidi ilə iş məhkəməyə təqdim edilib və S.Səmədov 30 sutkalıq inzibati qaydada həbsə məhkum edilib. Həmin vaxt S.Səmədov öz əlaqələrindən maksimum istifadə etməyə çalışıb və polis rəisinə təzyiqlər də etdirib, lakin nəticə əldə edə bilməyib. S.Səmədovun yaxın dostu olduğu bildirilən məşhur deputatlardan biri də işə qarışıb, ancaq o da heç nəyə nail ola bilməyib. Buna baxmayaraq, apellyasiya şikayəti zamanı cəzanın 15 sutkaya salınmasına nail ola biliblər.

Həbs cəzası almağına baxmayaraq, onun cəzasını "çöldə" çəkmək təşəbbüsləri də alınmayıb. Belə ki, İmişli RPŞ-də təmir işləri ilə bağlı S.Səmədov Sabirabad RPŞ-də saxlanılıb. Bu təşəbbüs də rədd edildiyindən, sözügedən deputatın "qisas əməliyyatı" da olub.

Buna baxmayaraq, S.Səmədov 15 günlük cəzasını günə-gün çəkib və yalnız bundan sonra azadlığa buraxılıb.

Hüquqşünas Qulamhüseyn Əlibəyli "Yeni Müsavat"a bildirdi ki, İmişli rayon Ağsaqqallar Şurasının sədri Saleh Səmədovun ittiham olunduğu maddə nisbətən yüngül maddədir: "Səmədov cərimə oluna, islah işlərinə cəlb oluna, yaxud da 2 ildən çox olmamaq şərtilə azadlıqdan məhrumetmə ilə cəzalandırıla bilər. Ramiz Mehdiyevin ittiham olunduğu maddələr isə Cinayət Məcəlləsinin xüsusilə ağır maddələridir. Öz-özlüyündə bu maddələr arasında əlaqə yoxdur. Müəyyən dostluq münasibətlərinin olması hələ İmişli rayon Ağsaqqallar Şurasının sədrinin Ramiz Mehdiyevin ittiham olunduğu cinayətlərdə iştirakını təsdiq etmir. Ramiz Mehdiyevin ittiham olunduğu cinayətlər Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) təkbaşına törədiləcək cinayətlər deyil. Əgər istintaq müddətində cinayət əməlində başqa şəxslərin, o cümlədən Saleh Səmədovun da cinayət əməllərində iştirakı sübuta yetirilərsə, onların cinayət məsuliyyətinə cəlb olunması məsələsinə baxmaq olar. Saleh Səmədovun cəzasının ağırlaşdırılacağını gözləmirəm".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

# "Köhnə bazara təzə qayda" - Yeni dəyişiklik nə vəd edir?

## Yarmarkalarda vergi uçotunun tənzimlənməsi ilə bağlı son qərardan müsbət gözləntilər var

**Bazarlarda vergi uçotunun tənzimlənməsi rəsmiləşdirmə prosesindəki çətinlikləri aradan qaldıracaq, istehlakçı hüquqlarını qoruyacaq. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin yaydığı açıqlamada belə qeyd olunur.**



Bildirilir ki, bazarlara vergi nəzarətinin təmin edilməsi ilə bağlı Vergi Məcəlləsinə dəyişikliklər cari ilin oktyabrın 1-dən qüvvəyə minib. Bu dəyişikliklər bazarlarda fəaliyyət göstərən bütün şəxslərin qanunvericiliyə uyğun leqal şəkildə fəaliyyət göstərməsini təmin etməyə və qanunsuz sahibkarlığın qarşısını almağa yönəlib. Dəyişikliklərə əsasən, bazarlarda icarəçilərin faktiki fəaliyyət göstərməsi yalnız onların icarəyə götürdükləri obyektlərin vergi orqanında uçota alınmasından sonra mümkündür. Bu öhdəlik bazar mülkiyyətçiləri tərəfindən təmin edilməlidir. Qanunvericiliyin yeni tələblərinə görə, bazar mülkiyyətçiləri icarə müqaviləsinə xitam verilmiş, fəaliyyətini dayandıran və ya davam etdirən vergi ödəyiciləri barədə məlumat formasını rübdə 1 dəfə vergi orqanlarına təqdim etməlidirlər.

Eyni zamanda cari ilin 1 oktyabr tarixindən etibarən növbəti 6 ay ərzində bazar mülkiyyətçiləri vergi orqanında uçota alınmamış təsərrüfat obyektlərinin (mağaza, ticarət obyekti, anbar) və həmin obyekti icarəyə götürən şəxslərin uçota alınmasını təmin etməlidirlər.

Rəsmi izahata əsasən sözügedən dəyişikliklərin əsas məqsədi qeyri-qanuni, uçotsuz fəaliyyət göstərən, istehlakçı hüquqlarını pozan sahibkarların fəaliyyətinin qarşısının alınması və onların vergi uçotuna alınmasını təmin etməkdir: "Vergi uçotundan kənar fəaliyyət göstərən bazarlarda alış zamanı çox zaman ödəniş sənədləri (çek, qəbz) təqdim edilmir. Bu isə istehlakçının hüquqlarının pozuntusuna, malların dəyişdirilməsi və ya qaytarılması zamanı problemlərin yaranmasına səbəb olur. Yeni mexanizm bu problemlərin qarşısını almaqla istehlakçı hüquqlarının qorunmasına və şəffaf bazar münasibətlərinin formalaşmasına xidmət edəcək. Ümumilikdə bu addımlar iqtisadi artıma və sosial rifahın yüksəlməsinə töhfə verəcəkdir".

Qeyd edək ki, yeni qanunvericilik söhbət kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarlarına aid deyil. Dəyişiklik bu bazarlar istisna olmaqla, digər bazarlara şamil edilir. Yəni vergi qanunvericiliyinin sözügedən müddəaları kənd təsərrüfatı məhsullarının satışı bazarları istisna olmaqla, tikinti, geyim, qeyri-ərzaq, sənaye və digər məhsulların satış bazarları, ticarət mərkəzləri, eləcə də AVM-lərdə fəaliyyət göstərən şəxsləri əhatə edir.

Vergi Xidməti bildirir ki, bu addım həm də qanunsuz sahibkarlığın qarşısını almağa yönəlib: "Son illərdə İqtisadiyyat Nazirliyi, o cümlədən Dövlət Vergi Xidməti tərəfindən ardıcıl şəffaflaşdırma tədbirləri həyata keçirilib. Nəticədə biznes mühitində əhəmiyyətli dərəcədə "ağarma" müşahidə olunur. Əmtəə zəncirinin bütün mərhələlərində rəsmiləşdirmə ildən-ilə artır və qanunsuz mal dövriyyəsinin və qeyri-rəsmi satış mənbələrinin aradan qaldırılması istiqamətində nəzarətin artırılması və tədbirlərin görülməsi davam etdirilir.

Bazarlar müxtəlif sahibkarların birgə fəaliyyət göstərdiyi əmlak kompleksi olmaqla yanaşı, bazar mülkiyyətçiləri həmin sahibkarların fəaliyyətini ələqələndirmək və təşkil etmək kimi vəzifələr daşıyırlar".

Xidmətdə hesab edirlər ki, bazarlarda qanunsuz sahibkarlığın qarşısının alınması istiqamətində bazar mülkiyyətçilərinin prosesdə fəal iştirakı vacibdir: "Yeni mexanizm həmçinin bazarlarda çalışan, lakin aldığı malları sənədləşdirməyən sahibkarların uçotla bağlı çatışmazlıqları aradan qaldıracaq, rəsmiləşdirmə proseslərini leqallaşdıracaq. Qeyd edilməlidir ki, sahibkarların vergi uçotuna alınmadan, o cümlədən icarəyə götürdükləri obyektləri vergi orqanında uçota qoymadan fəaliyyət göstərməsinə şərait yaradan bazar mülkiyyətçilərinə qarşı məsuliyyət tədbirlərinin tətbiq olunması vergi qanunvericiliyində açıq şəkildə təsbit edilib".

Hökumətin bu addımının ilk növbədə böyük yarmarkalarda uçotdanyayınmanın qarşısını almağa yönəldiyini açıq söyləmək olar. Çünki uzun illərdir həmin yarmarkalar kölgə iqtisadiyyatın mühüm atributuna çevrilib. Xüsusilə Bakı ətrafındakı nəhəng "Sədərək", "Binə" yarmarkalarının illik dövriyyəsinin heç yarısı belə uçota alınmır. Bu yarmarkalarda sayı minlərlə olan satış nöqtələrinin əksəriyyəti dövriyyənin mühüm hissəsi rəsmiləşdirmədən fəaliyyət göstərirlər. Kiçik istisnalarla, heç bir mağazada kassa çeki verilmir, satış həcmləri uçota alınmır. Onlarda çalışan işçilərin də əmək hüquqları tapdanır, onlarla əmək müqaviləsi imzalanmır.

Rəsmi statistikaya əsasən 2024-cü ildə Azərbaycanda əşya, ərzaq və qarışıq məhsullar yarmarkalarının və bazarların sayı 124, bu bazar və yarmarkalarda ticarət yerlərinin sayı isə 46 850 ədəd olub. Ötən il ərzində 62 milyard 202,9 milyon manat təşkil edən pərakəndə satışın 13 milyard 546,6 milyon manatı məhsul bazarları və yarmarkalarda reallaşdırılıb. Bu, rəsmi qeydiyyata alınan nöqtələrdir. Qeydiyyata alınmayan ticarət yerlərinin sayı bunun dəmək olar ki, ikiqatına bərabərdir. Bu isə o deməkdir ki, vergi qanunvericiliyinə edilən dəyişiklik ən azı 46 850 ticarət yerinə təsir edəcək.

Bazar və yarmarkalarla bağlı bu yenilik həm də həmin obyektlərdə satılan malların yanğın təhlükəsindən sığortalanması sahəsində ciddi dəyişikliyə gətirib çıxara bilər: məlumdur ki, belə obyektlərdə dövriyyə uçotdan yayındırıldığına görə malların sığortalanması mümkün olmur. Yeni qaydada isə malların qeydiyyatını tələbə çevirməklə onların sığortalanması problemini aradan qaldırmağa imkan verəcək.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Dünya SAKİT**

# Özəl pensiya fondları vətəndaşa nə verəcək? - Açıqlama gəldi

**Azərbaycanda qeyri-dövlət (özəl) pensiya fondlarının yaradılması gözlənilir. Hazırda bununla bağlı qanun layihəsinin işlənməsi prosesi gedir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, bu fondların yaradılması üçün 20-dən çox normativ hüquqi akt layihəsi hazırlanır.**



Modern.az-a açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qeyd edib ki, özəl pensiya fondlarının yaradılması istiqamətində işlər intensiv şəkildə davam etdirilir.

"Xüsusilə nəzərə alsaq ki, bir tərəfdən bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı işlər görülür, digər tərəfdən isə yeni mexanizmin hazırlanması da özəl pensiya fondlarının formalaşdırılmasında əsas istiqamətlərdən biridir".

Millət vəkilinin sözlərinə görə, ilk növbədə sözügedən kontekstdə qanunvericilik bazasının formalaşdırılması mühüm əhəmiyyət daşıyır:

"Milli Məclisin Əmək və sosial siyasət komitəsində də bu məsələ - yeni özəl pensiya fondları ilə bağlı qanunvericiliyin formalaşdırılması və təkmilləşdirilməsi müzakirə olunan əsas məsələlərdən biridir. Bu baxımdan gözlənilir ki, yaxın zamanlarda layihələrin hazırlanması və təqdim olunması mümkün olacaq və həmin layihələr Milli Məclisdə müzakirəyə çıxarılacaq".

Deputat həmçinin vurğulayıb ki, özəl pensiya fondları vətəndaşlar üçün həm də alternativ və paralel seçim imkanı yaradacaq:

"Bu sistem vətəndaşlara imkan verəcək ki, aylıq ödənişlər etməklə özəl pensiya fondlarında fərdi kapitala malik olsunlar və pensiya dövründə dövlət pensiyası ilə yanaşı, özəl pensiya fondundan da əlavə gəlir əldə etsinlər. Bu isə təbii olaraq pensiya məbləğinin artmasına səbəb olacaq.

Bundan əlavə, özəl pensiya fondlarında yığılan vəsaitin müəyyən hissəsindən daha tez istifadə imkanı da olacaq. Məhz bu baxımdan özəl pensiya fondları daha cəlbedicidir".

V.Bayramovun sözlərinə görə, gözlənti ondan ibarətdir ki, artıq bu ilin sonuna qədər qanunvericilik layihələrinin hazırlanması və razılaşdırılması mümkün ola bilər:

"Bu isə o deməkdir ki, bu ilin sonu və gələn ildən etibarən həmin layihələrin Milli Məclisdə müzakirəsini müşahidə edə bilərik".

O eyni zamanda diqqətə çatdırıb ki, özəl pensiya fondları vətəndaşlar üçün paralel yığım imkanı baxımından da mühüm əhəmiyyət daşıyır:

"Məsələn, əgər bir vətəndaş dövlət pensiya fondundan 600 manat pensiya alırsa, özəl pensiya fonduna etdiyi yığımlar hesabına əlavə 300 manat da əldə edə bilər. Nəticədə onun ümumi pensiyası 600 manat deyil, 900 manata qədər arta bilər. Bu isə vətəndaşın gəlirlərinin artması baxımından mühüm üstünlük sayılır".

Deputat qeyd edib ki, digər tərəfdən, beynəlxalq təcrübədə də olduğu kimi, özəl pensiya fondlarında toplanmış kapitalın müəyyən hissəsindən pensiya yaşı tamam olmadan da istifadə etmək mümkündür:

"Məsələn, əgər vətəndaşın fonda yığılmış 60 min manat vəsaiti varsa, onun üçdə bir hissəsini 50-55 yaşında kreditin qaytarılması, müəyyən xərclərin ödənilməsi və digər ehtiyaclar üçün istifadə edə bilər".

Müsahibimiz özəl pensiya fondlarının daha çevik bir mexanizm kimi çıxış edəcəyini də nəzərə çatdırıb:

"Bu fondlar vətəndaşlara əlavə kapital formalaşdırmaqla yanaşı, həmçinin erkən dövrdə həmin vəsaitdən istifadə imkanı da yaradır. Beləliklə, vətəndaşların pensiya təminatı güclənir, habelə maliyyə dayanıqlılığı artır",- deyə V.Bayramov fikrini tamamlayıb.

YENİ MÜSAVAT
N 189 (8799) 18 oktyabr 2025

# Zənginlik çoxuşaqlı ailə olmağa əngəldir?

## Sosioloq: “Əhalinin mədəni və təhsil səviyyəsi yüksəldikcə çoxuşaqlılığa maraq azalır”

**Rusiya Dövlət Dumasının üzvü Oleq Matveyçev qəribə bəyanatla çıxış edib. Deputat deyib ki, ölkədə doğum səviyyəsini həyat səviyyəsini aşağı salmaqla artırmaq olar. O, bu haqda parlamentin ictimai palatasında abortun təbliğatını qadağan edən qanun layihəsinin müzakirəsi zamanı bildirib.**

Matveyçevə görə, maddi şəraitin yaxşılaşdırılması demoqrafik böhranın həllinə kömək etmir, əksinə, doğum səviyyəsini aşağı salır. “Biz maddi şəraitin yaxşılaşdırılmasının demoqrafik problemləri həll edə biləcəyi doqmasından birdəfəlik imtina etməliyik. Qlobal təcrübə bunun tam əksini göstərir: insanlar nə qədər yaxşı yaşayırsa, bir o qədər ailədə az uşaq olur”, - deyən deputat bildirib ki, ən yüksək doğum səviyyəsi yoxsul ölkələrdə, ən pisi isə zəngin ölkələrdədir. O, uşaqlı ailələrə maliyyə ödəmələrinin də əleyhinə çıxış edib. Həmçinin qadınların getdikcə daha çox ailə həyatını yox, karyeranı seçdiyini deyib.

Azərbaycanda belə bir deyim var: “Kasıbın nəyi olmasa da, uşaqdan bol olar”. Doğrudanmı insanlar nə qədər yaxşı yaşayırsa, bir o qədər ailədə az uşaq olur? Yəni zənginlik çoxuşaqlı ailə olmağa əngəldir?

Mövzu ilə bağlı sosioloq Üzeyir Şəfiyev “Yeni Müsavat”a danışıb. Sosioloq qeyd edib ki, əhalinin mədəni və təhsil səviyyəsi yüksəldikcə çoxuşaqlılığa maraq azalır:

“Əhalinin mədəni səviyyəsi artdıqca, təhsil səviyyəsi yüksəldikcə insanlar çoxuşaqlılığa üstünlük vermirlər. Onlar düşünürlər ki, az sayda, lakin keyfiyyətli şəkildə uşaqları böyütsünlər, onlara yaxşı təhsil versinlər, gələcək karyeralarına dəstək olsunlar. Buna görə də müasir ailə modelində "az, amma keyfiyyətli" prinsipi üstünlük qazanır. Elə bu səbəbdəndir ki, çoxuşaqlı ailələr daha çox regionlarda və aztəminatlı təbəqələr arasında müşahidə olunur".

Sosioloqun sözlərinə görə, bəzi hallarda sosial müavinətlər də çoxuşaqlılığa dolayı motivasiya yaradır:

“Bəzən sosial müavinətlərin verilməsi çoxuşaqlılığı stimullaşdırır. Aztəminatlı ailələr çox uşağa sahib olmaqla həm sosial müavinət almaq imkanı qazanır, həm də bu yolla maddi vəziyyətlərini bir qədər yaxşılaşdırmağa çalışırlar. El arasında deyildiyi kimi, ”kasıbın nəyi olmasa da, uşağı bol olar". Bu da bir reallıqdır. Çünki çox uşaqlı ailələrə sosial dəstək mexanizmləri mövcuddur. Məsələn, 5 və daha çox uşağı olan ailələrə müavinətlər verilir. Uşağın doğulması zamanı da birdəfəlik sosial yardım nəzərdə tutulur. Amma 2006-cı ilə qədər isə hər bir uşağa görə ayrıca sosial müavinət verilirdi.



Bir çox ölkələrdə bu məsələ demoqrafik təşviq siyasətinin tərkib hissəsi kimi tətbiq olunur. Məsələn, Rusiyada çoxuşaqlılıq dövlət tərəfindən təşviq edilir. Bir uşağa, iki uşağa və üç və daha çox uşağa görə müavinətlər fərqli məbləğdə verilir. Məqsəd ailələri daha çox uşaq sahibi olmağa həvəsləndirməkdir. Bu təcrübə qardaş Türkiyədə və bir sıra Avropa ölkələrində də mövcuddur. Çünki bu, demoqrafik sabitliyi qorumaq üçün vacib mexanizmdir. Hər kəs yaxşı anlayır ki, varlı və yüksək gəlirli ailələr çoxuşaqlığa maraq göstərmirlər. Onlar bir, ən çoxu iki uşağa üstünlük verirlər. Hətta bəzi hallarda uşaq sahibi olmaq istəməyən ailələr də az deyil".

Üzeyir Şəfiyevin fikrincə, bir tərəfdən təhsil və mədəniyyət səviyyəsinin yüksəlməsi çoxuşaqlılığa marağı azaldırsa, digər tərəfdən aztəminatlı ailələr sosial müavinətlər hesabına güzəranlarını yaxşılaşdırmaq üçün çox uşaq sahibi olmağa meyil göstərirlər:

“Bu, cəmiyyətdə paralel şəkildə baş verən iki prosesdir. Yəni təhsilli və varlı ailələr az uşağa üstünlük verirlər, aztəminatlı ailələr isə çoxuşaqlılığı müəyyən sosial təminat forması kimi görürlər. Rusiya Dövlət Dumasının üzvü Oleq Matveyçevin fikirləri də, çox güman ki, bu məntiqə əsaslanır”.

Sosioloq hesab edir ki, çoxuşaqlılıq təkcə ailə deyil, həm də dövlət üçün strateji məsələdir:

“Ümumilikdə ailələrdə çox uşağın olması dövlət üçün əhəmiyyətlidir. Bu, demoqrafik artım və əhalinin keyfiyyəti baxımından vacib amildir. Dövlətin gücü və potensialı həm də onun əhalisinin gənc və aktiv hissəsi ilə ölçülür. Əgər cəmiyyətdə ahılların sayı gəncləri üstələyirsə, bu, artıq qocalan əhali deməkdir və bu vəziyyət dövlət üçün maliyyə yükü

Sosioloq həmçinin vurğulayıb ki, çoxuşaqlılıq yalnız təbliğ edilməməli, həm də real sosial dəstək mexanizmləri ilə təmin olunmalıdır:

“Əlbəttə, ailələri çoxuşaqlılığa təşviq etmək lazımdır, lakin bunun üçün təkcə uşağın doğulması zamanı birdəfəlik müavinət vermək kifayət deyil. Uşaqların müxtəlif yaş dövrlərinə uyğun sosial dəstək proqramları hazırlanmalıdır. Həmçinin ailə planlaşdıran insanlar da anlamalıdırlar ki, uşağı dünyaya gətirmək məsuliyyətli qərardır. Bu, yalnız doğuş anı ilə bitmir - uşağın təhsili, sağlamlığı, gələcək karyerası, məşğulluğu da nəzərə alınmalıdır. Məhz bu səbəbdən bir çox valideynlər gələcəklə bağlı narahatlıqlarına görə çox uşaq istəmirlər.

Bir müddət əvvəl parlamentdə çoxuşaqlı ailə statusunun 5 uşaqdan 3 uşağa endirilməsi təklifi müzakirə olunmuşdu. Bu, əslində maraqlı və müsbət yanaşmadır. Çünki əgər 3 uşaqlı ailə çoxuşaqlı hesab edilərsə, 5 uşaqlı ailələrə şamil olunan sosial imtiyazlar artıq 3 uşaqlı ailələrə də tətbiq olunacaq. Bu, yeni evlənən və ailə quran cütlükləri 3 uşaq sahibi olmağa daha çox təşviq edə bilər. Dolayısı ilə bu, demoqrafik artıma da müsbət təsir göstərə bilər. Yəni bu təklif gerçəyə çevrilsə, həm sosial, həm də demoqrafik baxımdan çox faydalı nəticələr verəcək".

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**



# Komitə sədri: “Pensiya yaşının azaldılmasına ehtiyac yoxdur"

**“Azərbaycanda pensiya yaşının artırılmasına da, azaldılmasına da zərurət yoxdur. Biz, təxminən, 7-8 il bundan öncə pensiya yaşını artırmışıq və yəqin ki, yaxın 10 ildə bu mövzuya qayıtmağa ehtiyac duyulmur”.**

Bu sözləri Pravda.az-a açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.

Sədr bildirib ki, ölkədə əhalinin yaşlanması prosesi gedir və doğulan insanların sayı ilə ölən insanların sayı arasındakı nisbət yavaş-yavaş azalır: “15 il bundan öncə Azərbaycanda doğum və ölüm arasındakı nisbət 100 min nəfər illik artım dinamikası verirdisə, indi bu rəqəm, təxminən, 60 minə düşüb. Bu bizi narahat edir, çünki 10-15 il sonra Azərbaycanda pensiyaçıların sayı artacaq və əmək qabiliyyətli insanların sayının artmasına da ehtiyac duyulacaq. Amma Pensiya Fondunun dayanıqlığının artırılması üçün çox böyük potensialımız var. Məncə, bundan istifadə etməliyik. Bu gün bizim, təxminən, 5 milyon 75 min məşğul əhalimiz var. Onlardan cəmi 1 milyon 770 mini muzdlu işləyənlər, yəni əmək müqaviləsi ilə işləyib, sosial sığorta ödəyənlərdir. Bu da məşğul əhalinin, təqribən, 35%-ni təşkil edir. Biz bu rəqəmin qaldırılması üçün düşünməliyik. Son illər bu istiqamətdə iş aparılır, müəyyən müsbət dinamika da qeyd olunur. Lakin təkrar edirəm, 35% aşağı rəqəmdir. Biz bunu 50%-ə çatdırsaq, 15 il bundan sonra da Dövlət Sosial Müdafiə Fondunun dayanıqlığı haqqında heç bir narahatçılığımız olmaz”.

M.Quliyev deyib ki, pensiya yaşının artırılması Pensiya Fondunun dayanıqlığı, pensiya təminatının yaxşılaşdırılması üçün alətlərdən biridir: “Biz bu işi 7-8 il bundan öncə görmüşük. Azərbaycanda orta ömür uzunluğu normal həddə - təxminən, 76 yaşın üzərindədir. 2050-ci ilə qədər bu rəqəmin 78 yaşa çatması gözlənilir. Bu, pis göstərici deyil, yaxşıdır. Söhbət orta ömür uzunluğundan daha çox, məncə, yaşlı insanlarla gənc insanların nisbətindən gedir. Ermənistan və Gürcüstanda bu nisbət məhz yaşlı insanların xeyrinədir. Buna görə də ilk baxışda gözə orta ömür uzunluğunun çox olması görünür. Çünki onlarda doğum nisbəti bizdən xeyli aşağıdır. Təəssüf ki, bizdə də son illərdə doğulanların dinamikasında kəskin azalma var. Bunun da qarşısının alınması üçün demoqrafik inkişafla bağlı geniş dövlət proqramı qəbul olunmalıdır”.

Qeyd: Maliyyə Nazirliyi yeni hesabatında pensiya yaşının artırılması ilə bağlı təklif irəli sürüb. Eyni vaxtda beynəlxalq mediada açıqlanan statistikada Azərbaycanın (132) orta ömür göstəricisinə görə Ermənistan (116) və Gürcüstandan (130) geri qaldığı, Şimali Koreyaya yaxınlaşdığı qeyd olunub. Bu məsələ cəmiyyətdə geniş müzakirə yaradıb.



# Yasamalda silahlı insident: iki nəfər tutuldu

**Yasamal rayonunda ötən gün baş verən silahlı insidentlə bağlı iki nəfər polis əməkdaşları tərəfindən saxlanılıb. DİN-in Mətbuat Xidmətindən bildirilib ki, oktyabrın 16-da Yasamal rayonu ərazisində əvvəllər Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə məhkum olunmuş iki nəfərin odlu silahdan açılan atəş nəticəsində xəsarət alması barədə polisə məlumat daxil olub.**

Polis əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən 36 yaşlı Elgün Cəbrayılov 38 yaşlı Rüfət Həziyev saxlanılıb. Həmin şəxslərdən 1 ədəd “Makarov” markalı tapança, 5 ədəd patron və narkotik vasitələr aşkar edilərək götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, əməliyyat-istintaq tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 189 (8799) 18 oktyabr 2025

# Trampdan Putinə sonuncu xəbərdarlıq - Ukrayna təkbaşına qalib ola bilər?

## ABŞ və Rusiya liderləri tezliklə görüşməyə razılaşdılar; ekspertə görə, hərbi baxımdan Qərbin dəstəyi olmadan Kiyevin qələbəsi mümkün deyil



**Rusiya və ABŞ prezidentləri - Vladimir Putin və Donald Tramp tezliklə Budapeştdə növbəti təkbətək görüş keçirəcək. Tramp bu barədə Putinlə telefon danışığından sonra "Truth Social" şəbəkəsində yazıb.**

"Söhbətimizin sonunda biz razılaşdıq ki, gələn həftə müşavirlərin yüksək səviyyəli görüşü keçirilsin. Prezident Putinlə mən əvvəlcədən razılaşdırılmış yerdə - Budapeşt, Macarıstanda görüşəcəyik", - Amerika lideri bildirib. Oktyabrın 16-da ABŞ Prezidenti Donald Trampla telefon danışığından sonra Rusiya Prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının daimi üzvlərini Kremlə toplayıb. Rusiya prezidentinin köməkçisi Yuri Uşakov deyib. "Prezident onlara amerikalı həmkarı ilə aparılan fikir mübadiləsi barədə ətraflı məlumat verib", - Uşakov bildirib.

ABŞ prezidenti Donald Tramp Rusiyanın iqtisadi vəziyyəti ilə bağlı sərt açıqlama verib. Musavat.com xəbər verir ki, Tramp bəyanatında Moskvanın iqtisadi sisteminin çöküş həddində olduğunu bildirib. Onun sözlərinə görə, Kremlin davam etdirdiyi müharibə siyasəti ölkəni maliyyə baxımından iflas nöqtəsinə gətirib çıxarıb.

"Rusiya iqtisadiyyatı dağılmaq üzrədir. Onlar müharibəni dayandırmaq istəmirlər və bu siyasətin sonu ağır nəticələrə gətirib çıxaracaq", - deyə Tramp vurğulayıb.

ABŞ lideri əlavə edib ki, yaxın vaxtlarda (oktyabrın 17-də - red.) Ukrayna prezidenti Vladimir Zelenski ilə görüş planlaşdırır və görüşdə Kiyevə yeni silahların verilməsi məsələsi müzakirə olunacaq. Tramp qeyd edib ki, məqsəd "müharibəni dayandırmaq üçün Ukraynanın müdafiə imkanlarını gücləndirmək" olacaq.

Ukraynanın sabiq prezidenti Pyotr Poroşenko Polşanın TVP telekanalına müsahibəsində isə deyib ki, Ukrayna Rusiya ilə münaqişədə xarici qoşunların iştirakı olmadan qalib gəlməyə qadirdir. O, Qərb tərəfdaşlarına müraciət edərək deyib: "Bizə sizin əsgərləriniz lazım deyil, birliyə ehtiyacımız var, həmrəyliyə ehtiyacımız var".

Poroşenkonun sözlərinə görə, Ukraynanın NATO-ya üzvlüyü olmadan Avropada sabit vəziyyət təmin oluna bilməz. O, Kiyevin alyansa qoşulmasının qitənin təhlükəsizliyi üçün "əsas məsələyə" çevrildiyini vurğulayıb. Keçmiş prezident Qərb ölkələrinə "NATO qapılarını Ukrayna üçün açıq saxlayın" deyib.

Poroşenko nə dərəcədə haqlıdır? Ukrayna doğrudanmı təkbaşına qalib gələ bilər?

Siyasi şərhçi Kamran Məmmədli "Yeni Müsavat"a deyib ki, ABŞ prezidenti Donald Trampın Rusiyanın iqtisadi vəziyyəti ilə bağlı sərt bəyanatı və oktyabrın 17-də Ukrayna lideri Vladimir Zelenski ilə görüş planı beynəlxalq gündəmdə yeni siyasi siqnallar doğurub: "Tramp açıq şəkildə bildirib ki, Rusiya iqtisadiyyatı dağılmaq üzrədir və bu, Moskvanın müharibəni dayandırmaq istəməməsi ilə bağlıdır. O, eyni zamanda, Ukraynaya yeni silahların verilməsi və müdafiə qabiliyyətinin artırılması məsələsinin müzakirə olunacağını təsdiqləyib. Bu açıqlama əslində, ABŞ-ın Rusiya ilə münasibətlərində diplomatik təzyiq mərhələsinin intensivləşdiyini göstərir. Tramp administrasiyası açıq şəkildə mesaj verir ki, Rusiya iqtisadi cəhətdən dayanıqsız hala gəlib və bu, hərbi siyasətin nəticəsidir".

Siyasi şərhçinin sözlərinə görə Vaşinqtonun məqsədi müharibəni dayandırmaq, Moskvanı zəiflətmək kimi bir neçə strateji aspektdə dəyərləndirmək olar:

"Trampın bəyanatında müharibəni dayandırmaq üçün Ukraynanın müdafiəsini gücləndirmək fikri var. Bu, ilk baxışda paradoks kimi görünür, lakin diplomatik praktikada bu, məcburi sülh taktikasına uyğundur. Yəni, qarşı tərəf yalnız təzyiq altında razılığa gəlir. Tramp da məhz bu model üzərindən hərəkət edir".

Siyasi şərhçi bildirib ki, Ukraynanın sabiq prezidenti Pyotr Poroşenkonun xarici qoşunlarsız qalib gəlmək mümkündür bəyanatı hərbi-analitik baxımdan reallıqla uzlaşmır: "Ukrayna son iki ildə döyüş təcrübəsi, səngər müdafiəsi və Qərb hərbi texnologiyalarının tətbiqi baxımından irəliləyiş əldə edib. Lakin bu, təkbaşına qələbə üçün yetərli deyil. Müasir müharibələr təkcə cəbhədəki əsgərlərin sayı ilə deyil, logistika, kəşfiyyat, texnologiya və enerji resursları ilə qazanılır.

Ukraynanın hərbi əməliyyatları NATO-nun kəşfiyyat məlumatlarına, Qərb istehsalı dron və raket sistemlərinə söykənir. Bu resurslar olmasa, Rusiya ordusuna qarşı effektiv müqavimət göstərmək çətinləşər. Deməli, Poroşenkonun bəyanatı daha çox siyasi motivasiyalıdır - məqsəd döyüşürük, siz bizə borclusunuz ideyasını gücləndirməkdir.

Poroşenkonun Avropada sabitlik Ukraynanın NATO-ya üzvlüyündən asılıdır fikri əslində doğru istiqamətdə olsa da, praktiki planda həyata keçməsi real deyil. NATO-nun nizamnaməsinə görə, müharibə şəraitində olan ölkə alyansa qəbul edilə bilməz. Bu, Qərbin qarşısında strateji dilemma yaradır: ya Ukraynanı formal üzvlük olmadan qorumaq, ya da Rusiya ilə birbaşa qarşıdurma riskini qəbul etməlidir. Tramp isə bu məsələdə daha soyuq və realist yanaşır. Onun siyasətində NATO-nun rolundan çox, ABŞ-ın öz maraqları əsasdır. O, Ukraynanın qalib gəlməsini deyil, Rusiyanın zəifləməsini prioritet sayır".

Siyasi şərhçi deyir ki, Trampın "Rusiya iqtisadiyyatı dağılmaq üzrədir" fikri bir növ xəbərdarlıqdır: "Hazırda Moskva enerji ixracından asılı vəziyyətdədir, Qərbin texnoloji blokadası isə istehsal sektorunu çökdürüb. Rubldakı devalvasiya, maliyyə ehtiyatlarının azalması və beynəlxalq bazarlardan sıxışdırılma Vaşinqtonun təzyiq mexanizmlərinin nəticəsidir.

Bu vəziyyətdə Kreml üçün iki yol qalır, ya daxili iqtisadi islahatlar aparmaq, ya da müharibəni uzadaraq xarici düşmən imici üzərindən daxili sabitliyi qorumağa çalışmaq. Hər iki variant Rusiya üçün risklidir.

Bu baxımdan Trampın son bəyanatı əslində Putinə bir xəbərdarlıqdan çox, yeni geosiyasi mərhələnin başlanğıcıdır. ABŞ Rusiya iqtisadiyyatını sanksiyalarla sıxışdıraraq onu danışıqlara məcbur etmək istəyir. Bu, klassik sülhə məcburetmə strategiyasıdır, hərbi yox, maliyyə və diplomatik təzyiqlə nəticəyə nail olmaqdır".

Siyasi şərhçi deyib ki, Ukraynanın təkbaşına qələbə tezisi isə hələlik siyasi ritorika səviyyəsində qalır: "Hərbi baxımdan bu, Qərb dəstəyi olmadan mümkün deyil. Lakin Trampın ritorikası göstərir ki, ABŞ bu dəfə müharibəni Qərb birliyi çərçivəsində deyil, ABŞ liderliyində sülh platforması formatında yekunlaşdırmaq istəyir".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

## Türkiyə bu ölkəyə əlavə qüvvə göndərir



**Türkiyə Suriyaya əlavə hərbi texnika göndərməyi və Suriya sərhədində kürd silahlılarını hədəfə almağa imkan verən bir razılaşma əldə etməyi planlaşdırır.**

APA xəbər verir ki, bu barədə "Bloomberg"də yazı dərc olunub.

"Bloomberg" anonim türkiyəli rəsmilərə istinadən bildirir ki, Ankara növbəti həftələrdəhökuməti dəstəkləmək məqsədilə Suriyaya zirehli maşınlar, dronlar, artilleriya, raket və havadan müdafiə sistemləri göndərəcək. Bu hərbi texnikalar İsraillə mümkün gərginliyin qarşısını almaq üçün Suriyanın cənubundan yox, şimalında yerləşdiriləcək.

Türkiyə və Suriya arasında təxminən 30 ilə yaxındır ki mövcud olan razılaşmaya əsasən, Türkiyənin sərhədə yaxın - 5 kilometrliyində fəaliyyət göstərən kürd silahlılarını hədəfə almaq icazəsinin 30 kilometrə qədər artırılması planlaşdırılır.



## Kremldən görüşlə bağlı yeni açıqlama

**Rusiya Prezidenti Vladimir Putin və ABŞ Prezidenti Donald Tramp arasında görüş yaxın iki həftə ərzində baş tuta bilər.**

Teleqraf xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib.

"Hər iki tərəf başa düşür ki, bu, təxirəsalınmaz görüşdür", - Peskov bildirib.

Kremlin nümayəndəsi əlavə edib ki, görüşün Macarıstanda keçirilməsi qarşılıqlı razılaşma əsasında olub.

Xatırladaq ki, oktyabrın 16-da Rusiya və ABŞ liderləri arasında telefon danışığı keçirilib. Söhbət zamanı iki lider Macarıstanın paytaxtı Budapeştdə görüş barədə razılığa gəlib.

## Gürcüstanda bəzi partiyalar qadağan ediləcək



**Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib ki, hakim partiya yaxın günlərdə Konstitusiya Məhkəməsinə iddia verəcək.**

"AzPolitika" xəbər verir ki, iddia təkcə bir-iki partiyaya aid olmayacaq, "2012-ci ildən əvvəl qanlı rejimin nümayəndələri olmuş və həmin qanlı siyasi qüvvə ilə birlikdə 2012-ci ildən sonra ölkəyə qarşı davamlı sabotajlarda iştirak edən" bütün siyasi subyektləri əhatə edəcək. Baş nazir qeyd edib ki, iddianın tam siyahısı Konstitusiya Məhkəməsinə təqdim edildəndə ictimaiyyətə açıqlanacaq.

Kobaxidze əlavə edib ki, qanunvericilikdə texniki məsələlər aydınlaşdırılıb və əsas məqsəd Konstitusiya Məhkəməsinə düzgün iddia təqdim etməkdir. Bu addımın məqsədi Gürcüstanın demokratik sistemini bərpa etməkdir. Baş nazir vurğulayıb ki, hazırda hakim komandanın yeganə rəqibi "Kollektiv Milli Hərəkat" partiyası kimi cinayətkar siyasi qüvvədir və belə şəraitdə sağlam demokratik sistem mövcud ola bilməz. "Biz demokratik və siyasi sistemimizi bərpa etməliyik və məhz bu məqsədlə iddia bir neçə gün ərzində Konstitusiya Məhkəməsinə təqdim olunacaq", - deyə Baş nazir bildirib.

YENİ MÜSAVAT
N 189 (8799) 18 oktyabr 2025

# İki ölkə Rusiya neftindən imtina edir - Azərbaycana təsiri

## Qonşu ölkənin neftinin dünya bazar yolunun daralması bizim üçün əlverişli şərtlər formalaşdıra bilər

**ABŞ Hindistan və Çinə Rusiya neftinin alışını dayandırmaq istiqamətində təzyiqləri artırır. Prezident Donald Tramp açıqlayıb ki, Hindistanın baş naziri Narendra Modi ona Rusiya neftinin alınmasını dayandırmağa hazır olduğunu bildirib: “Dostum Modi məni Rusiyadan neft almayacağına inandırdı. O bunu dərhal edə bilməz; bu, bir prosesdir. Amma bu, tezliklə başa çatacaq”.**

Amerika lideri həmçinin əlavə edib ki, Vaşinqton Hindistanın Rusiya neftini almağa davam etməsindən məmnun deyil: “Çünki bu, Rusiyaya artıq bir milyon əsgərini itirdiyi müharibəni davam etdirməyə imkan verir”.

Trampın sözlərinə görə, “indi Çinin də eyni şeyi etməsi lazımdır”.

Reuters agentliyinin Ağ Ev rəsmisinə istinadən yaydığı məlumatda isə Hindistanın neft emalı zavodlarının Rusiya neftinin idxalını 50 faiz azaldacaqları qeyd olunur. Rəsminin dediyinə görə, bu qərar Yeni Dehli və Vaşinqton arasında ticarət danışıqlarından sonra qəbul edilib. O, əlavə məlumat verməyib.

Oktyabrın 16-da agentlik üç mənbəyə istinadən xəbər verib ki, ABŞ-ın artan təzyiqləri fonunda Hindistanın neft emalı zavodları dekabr ayından etibarən Rusiyadan xammal alışını azaltmağa hazırlaşır. Reuters-ə danışan treyderlər Hindistanın bir müddət vaxta ehtiyacı olacağını bildiriblər. Mənbələr həmçinin qeyd ediblər ki, bu məsələ ilə bağlı hələlik hökumətin sərəncamı yoxdur.

Oktyabrın 16-da Hindistan Xarici İşlər Nazirliyinin sözçüsü Randhir Caişval bildirib ki, Hindistan qeyri-sabit enerji vəziyyəti fonunda “istehlakçılarının maraqlarını qoruyur” və onun Rusiyadan neft alışı məhz bu məqsədə yönəlib. O, həmçinin qeyd edib ki, Yeni Dehli də Vaşinqtonla enerji əməkdaşlığı üzrə danışıqlar aparır, bu proses on ildir davam edir və Hindistanın enerji siyasətinin mürəkkəbliyini və çoxşaxəli xarakterini nümayiş etdirir.

Hələlik Hindistan ABŞ-ın təzyiqlərinə müəyyən qədər dirəniş göstərir. Lakin onun çox davam etməyəcəyi artıq hər kəsə aydındır. Məsələ burasındadır ki, Hindistan yalnız bir neçə il əvvəl - Ukraynadakı işğalçı müharibə başladıqdan sonra Rusiya neftinin ən böyük alıcılarından birinə çevrilib. Ondan əvvəl, uzun onilliklər ərzində Rusiyanın enerji resursları Hindistanın idxalının bir faizindən də azını təşkil edirdi, ona görə də nüvə sənayesi istisna olmaqla, iki ölkə arasında enerji əlaqələrinin uzun tarixindən danışmaq mümkün deyil.



Digər tərəfdən, Hindistanın enerji sahəsində strateji məqsədi tədarüklərin və enerji resurslarının özünü diversifikasiya etməklə enerji təhlükəsizliyini təmin etməkdir. 2022-ci ilə qədər əsas tədarükçülər Yaxın Şərq ölkələri idi, lakin bu gün Yeni Dehli həm bərpa olunan mənbələri, o cümlədən dünyanın ən böyük günəş elektrik stansiyalarını, həm də kömür kimi ənənəvi mənbələri birləşdirən maksimal dərəcədə əhatəli enerji qarışığı yaratmağa çalışır. Rusiya Avropa bazarından qovulduqdan sonra neftinə ciddi endirim(hazırda Brentlə müqayisədə Urals neftinə 7 faizlik endirim var -red.) tətbiq edib. Hindistan bu endirimdən bəhrələnərək, ucuz xammal hesabına əldə etdiyi emal məhsullarını əsasən Avropaya olmaqa, xaricə satıb böyük gəlirlər əldə edib. Analitiklərin hesablamalarına görə, Hindistan 2022-ci ilin fevralından 2025-ci ilin avqustuna qədər bu yolla təxminən 17 milyard dollara qənaət edib.

Hindistan üçün daha bir üstünlük var: Rusiyanın neft gəlirləri kapital axını ilə bağlı problemlər səbəbindən uzun müddət Hindistan banklarında ilişib qalıb. Məbləğ müxtəlif vaxtlarda bir neçə milyondan bir neçə milyard dollara qədər dəyişib. Bu pulun bir hissəsi suveren qiymətli kağızların alınması üçün istifadə olunur ki, bu da Hindistanın iqtisadi artımını sürətləndirir.

Lakin avqustdan Avropa İttifaqı Rusiya neftindən emal olunan yanacaqların idxalını qadağan edib, bir neçə gün əvvəl Böyük Britaniya da eyni addımı atıb. Hər iki mərkəz Hindistanda “Rosneft”ə məxsus Nayara Energy şirkətinə sanksiya tətbiq edib.

Yəni Hindistan ucuz aldığı Rusiya neftindən emal etdiyi yanacaqları sata bilməyəcəksə, üstəlik, ABŞ-a ixracına yüksək rüsumlar qalacaqsa, aydın məsələdir ki, Rusiyadan neft alışını ən azı kəskin şəkildə azaltmalı olacaq.

Müqayisə etdikdə, Hindistanın Rusiya neftindən imtina etməməsinin ölkəyə daha böyük zərər yetirdiyini görmək olur. Belə ki, Hindistanın GTRI analitik mərkəzinə görə, ABŞ-ın 50 faiz tarifləri ölkənin ABŞ-a ixracını 2026-cı ildə 86,5 milyard dollardan 50 milyard dollara endirə bilər. ABŞ Hindistanın ən böyük ticarət tərəfdaşıdır. Tekstil, qiymətli daşlar və zərgərlik məmulatları, karides və xalçalar ən çox zərər görəcək: ixrac 70 faiz azala bilər. Yüz minlərlə iş risk altındadır. Standard Chartered xəbərdarlıq edir ki, yeni tariflər Hindistanın ÜDM artımının 1 faizini azaldacaq.

2024-cü ildə Rusiyanın Çinin neft idxalında payı 20 faiz, Hindistanın idxalında payı isə 41 faiz olub. Bu iki ölkə Rusiya neftinin 82 faizini alıb. Hindistanın alışları dayandırması Rusiya üçün bir neçə böyük risk yaradır. Əsas risk yeni bazarlar tapmaq üçün Urals-ın qiymətinə əlavə endirimlər və əlavə logistika xərcləridir. Yeni bazarlar tapmaq sanksiyalara məruz qalan əsas istehsalçı üçün daha çətindir, nəinki böyük alıcı üçün yeni təchizatçılar tapmaq. Bu baxımdan, Hindistan öz zavodları üçün xammalı daha asan tapacaq, nəinki Rusiya öz nefti üçün alıcıları. Çünki Rusiya nefti sanksiyalar altındadır, onun daşınması, sığortalanması da həmçinin.

Rusiya ekspertləri bildirirlər ki, Hindistan Rusiya neftinin alışını dayandırıb Yaxın Şərq neftini almağa başlasa, bazarda qıtlıq və qiymət artımı olacaq. Hətta 200 dollarlıq qiymətdən bəhs edənlər də var. Lakin reallıq tamam fərqlidir: Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, 2025-ci ilin iyununda Səudiyyə Ərəbistanı, İraq, BƏƏ və Küveytdə artıq neft hasilat gücü gündəlik 3,9 milyon bareldən bir qədər çox olub. Bu, 90 gün ərzində neft hasilatının artırılması üçün texniki potensiala aiddir. Bu o deməkdir ki, Yaxın Şərqin ən böyük neft istehsalçıları Çin və Hindistan bazarlarında Rusiya neftini əvəz etmək potensialına malikdir və OPEC+ kvotaları artdıqca bu imkan daha da artacaq. Bundan əlavə, ABŞ, Qayana və Braziliyanın getdikcə artan hasilatı da bazarda ciddi bir çatışmazlıq olmayacağından xəbər verir.

Hazırda dünya bazarında ciddi neft artıqlığı var. Qiymətlər 62 dollar səviyyəsinə qədər düşüb. Rusiyanın daxildə emal potensialına Ukraynanın vurduğu dron zərbələri onun da hasil etdiyi neftin daha çox hissəsini ixrac etməsini zərurətə çevirib. Bu şəraitdə Hindistanın aldığı gündəlik 1,6-1,7 milyon barel neft dayansa, Rusiya hasilatı azaltmağa məcbur olacaq. Bu isə sonrakı bərpa xərclərini də nəzərə aldıqda, çox nəhəng itkilər vəd edir.

Sentyabr ayında Hindistan Rusiyadan neft alışını ötən illə müqayisədə 14,2 faiz azaldaraq sutkada 1,62 milyon barelə salıb. Beləliklə, Rusiyanın bu ölkənin neft idxalında payı ilin əvvəlindəki 41 faizdən 36 faizə qədər geriləyib, əvəzində ABŞ neftinin payı artıb. Aprel-sentyabr aylarında Rusiya xam neftinin Hindistan bazarına ixracı 2024-cü ilin səviyyəsi ilə müqayisədə 8,4 faiz azalıb. Agentlik bildirir ki, buna endirimlərin azalması və tədarükün məhdud olması səbəb olub.

Ümumilikdə Hindistan keçən ay gündəlik 4,88 milyon barel idxal edib ki, bu da illik müqayisədə 3,5 faiz artım deməkdir.

Rusiya neftinin ikinci böyük alıcısı olan Çin sentyabrda alışları 8,7 milyon tona salıb. Bu, avqustla müqayisədə 17 faiz azalma deməkdir.

Beynəlxalq Enerji Agentliyinin (IEA) aylıq hesabatına görə, sentyabrda Rusiyanın neft və neft məhsullarının ixracından əldə etdiyi gəlir avqust ayı ilə müqayisədə 240 milyon dollar, 2024-cü ilin sentyabr ayı ilə müqayisədə isə 0,73 milyard dollar az olmaqla 13,35 milyard dollar təşkil edib.

Bu arada fiziki ixrac həcmi avqust ayı ilə müqayisədə sutkada 210 min barel artaraq 7,44 milyon barelə çatıb. 2024-cü ilin eyni dövrü ilə müqayisədə ixracat sutkada 90 min barel çox olub. Ölkənin əsasən qazoyl və mazutdan ibarət(benzin və dizel ixracı qadağan olunub-red.)neft məhsullarının ixracı avqust ayında sutkada 170 min barel azalaraq 2,37 milyon barel olub ki, bu da əvvəlki illə müqayisədə sutkada 290 min barel aşağıdır. Bu, 2020-ci ilin aprel ayı istisna olmaqla, ilk növbədə qazoyl və mazut hesabına onillikdə ən aşağı səviyyədir.

Eyni zamanda, xam neft ixracı sentybarda sutkada 370 min barel artaraq 5,07 milyon barel olub (keçən ilin sentyabr ayı ilə müqayisədə sutkada 380 min barel az).

Neft vergilərinin hesablanması üçün əsas olan Urals markalı xam neftin orta qiyməti 2025-ci ilin sentyabrında 56,82 dollar təşkil edib. Avqustda bu göstərici 57,55 dollar, ötən ilin sentyabrında isə 63,57 dollar olub.

Qeyd edək ki, neft hasilatçısı, iqtisadiyyatı bu məhsuldan böyük ölçüdə asılı olan Azərbaycan üçün Rusiya neftinin dünya bazar yolunun daralması əlverişli şərtlər formalaşdıra bilər: bazardan böyük həcmdə xammalın çıxması qiymətləri yuxarı çəkə bilər. Hazırda Azərbaycan neftinin orta satış qiyməti 63 dollar civarındadır. Halbuki bu ilin dövlət büdcəsində hesablama 70 dollarlıq qiymət əsasında aparılıb. Bu baxımdan, qiymətlərin yüksəlməsi ölkəmiz üçün müsbət amil olar.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

# YENİ MÜSAVAT

## Son səhifə

N 189 (8799) 18 oktyabr 2025

Oktyabr




# Xəyanətin səbəbi açıqlandı

**"Xəyanətin ən çox yayılan səbəbi emosional və ya cinsi ehtiyacların ödənilməməsidir". Ailələr üzrə psixoterapevt xəyanətin gözlənilməz, lakin ən çox rast gəlinən səbəbini açıqlayıb. O bu barədə Reddit forumunda anonim şəkildə məlumat verib. Mütəxəssisin sözlərinə görə, xəyanətin əsas səbəbi çox vaxt emosional və ya cinsi ehtiyacların qarşılanmaması olur: "Bu, insanın emosional və ya seksual tələbatlarına aiddir və adətən hər iki amil bir arada müşahidə olunur", - deyə psixoterapevt bildirib.**

O vurğulayıb ki, emosional xəyanət cəmiyyət tərəfindən bəzən yüngül qarşılanır, lakin bu, münasibətlərə ciddi zərər vurur. Belə hallarda tərəflər arasında əvvəllər yalnız münasibət daxilində mövcud olan yaxınlıq başqa bir şəxsə yönəlir ki, bu da partnyora mənəvi ağrı yaşadır.

Psixoterapevt həmçinin qeyd edib ki, xəyanət nə vaxtsa mütləq üzə çıxmalıdır. Əks halda, bu, tərəfdaşın münasibətlər barədə müstəqil qərar vermək hüququnu əlindən alır və müəyyən mənada manipulyasiya sayılır. Qeyd edək ki, daha əvvəl psixoloq Pavel Reşetov insanlarda partnyora qarşı marağın qəfil itməsinin səbəblərindən danışmışdı. Onun fikrincə, bu vəziyyət çox vaxt gözləntilərlə reallıq arasındakı uyğunsuzluqdan qaynaqlanır.

# Azərbaycanda bir ilk: Xəstə üzərində məsafədən cərrahiyyə əməliyyatı icra olundu



**Azərbaycan səhiyyəsində ilkə imza atılıb. Belə ki, ilk dəfə Azərbaycan və Çin cərrahları birlikdə xəstə üzərində məsafədən və eyni anda robotik cərrahiyyə əməliyyatını icra ediblər.**

Milli Onkologiya Mərkəzinin baş həkimi Azad Kərimli jurnalistlərə açıqlamasında bildirib ki, respublikada laporoskopik əməliyyatların aparılması çox geniş vüsət alıb: "65 yaşlı qadın uşaqlıq xəstəliyi ilə əlaqədar cərrahi əməliyyat olunub. Bu nailiyyəti əldə etmək çox böyük bir zəhmət, məsuliyyət tələb edir. Buna baxmayaraq, cərrahlarımız bu məsuliyyəti üzərlərinə götürdülər və əməliyyatı uğurla həyata keçirdilər".

Qeyd edək ki, adıçəkilən əməliyyat "Robotik Cərrahiyyə Körpüsü-2025" adlı beynəlxalq tədbir çərçivəsində həyata keçirilib.

# ABŞ Avropa və CAR-dan ağdərili qaçqınları qəbul edəcək




**ABŞ Prezidenti Donald Trampın administrasiyası ölkənin miqrasiya siyasətini əsasən Avropa və Cənubi Afrika Respublikası (CAR) ərazisindən olan ağdərili qaçqınların qəbuluna yönəltmək niyyətindədir. Oxu.Az xəbər verir ki, bu barədə "The New York Times" qəzeti məlumat yayıb.**

Qeyd olunur ki, bəzi sənədlərə əsasən, dünya əhalisinin ən həssas təbəqələrinə kömək etmək məqsədi daşıyan mövcud miqrant qəbulu sistemi yenidən qurulacaq və əsasən təqib riski ilə üzləşən ağdərili insanlara üstünlük veriləcək. Məlumata görə, söhbət əsasən ingilisdilli avropalılar və CAR sakinlərindən gedir. İddia olunur ki, yeni proqram digər avropalıları da əhatə edə bilər - xüsusilə öz ölkələrinin miqrasiya siyasətinə qarşı çıxan və "populist partiyaları" dəstəkləyən şəxslər bu kateqoriyaya daxildir. Onlar dinc şəkildə fikirlərini ifadə etdikləri üçün təqibə məruz qaldıqları halda ABŞ-də qaçqın statusu ala biləcəklər.



# Qəhvəni bu yaşa qədər içmək olmaz - Açıqlama

**Uşaqlara qəhvə içmək olmaz. Milli.Az xəbər verir ki, rusiyalı nevroloq və epileptoloq Vasili Plotnikov uşaqların və yeniyetmələrin nə vaxtdan qəhvə içə biləcəyini izah edib. Onun sözlərinə görə, beynəlxalq tibbi tövsiyələrə əsasən 14 yaşadək uşaqlara qəhvə içmək məsləhət görülmür. Bu yaşa qədər gündəlik kofein miqdarı 50 milliqramdan çox olmamalıdır.**

Həkim bildirib ki, 14 yaşdan etibarən sutkada 100 milliqrama qədər kofein qəbul etmək mümkündür. Bu da təxminən bir fincan üyüdülmüş qəhvəyə və ya iki fincan yüngül qəhvəyə bərabərdir. Plotnikovun sözlərinə görə, kofeini çox qəbul etmək yeniyetmələrdə narahatlıq, aqressiv davranış, həddindən artıq həyəcan, baş ağrısı və davranış pozuntularına səbəb ola bilər.

Mütəxəssis əlavə edib ki, kofein yalnız qəhvədə deyil, digər içkilərdə də var. Onun fikrincə, 14 yaşadək uşaqlara 0,33 litrdən çox kola içmək olmaz. Həmçinin, bəzi uşaqların sevdiyi şirin qara və yaşıl çaylarda da kofein mövcuddur.

Plotnikov vurğulayıb ki, enerji içkiləri 18 yaşadək tamamilə qadağandır. Çünki onların tərkibində adətən hər bankada ən azı 150 milliqram kofein olur.

# Bunları bilirsinizmi?

* Bir insan həyatı boyunca iki ilini telefonda danışaraq keçirir.

* Monakonun milli orkestrası ordusundan daha geniş bir heyyətə malikdir.

* Kanada, Qırmızıdərili dilində "böyük kənd " mənasını verməkdədir.

* Hindistandakı illik doğum sayı, Avstraliyanın cəmi əhalisindən çoxdur.

* Eskimo dilində qar yağıntılarının fərqlərini təsvir etmək üçün istifadə edilən iyirmidən çox söz vardır.

* Dünyadakı ilk telefon rəhbərində yalnız əlli ad yer almışdı. 1878 ilinin fevral ayında Connecticut New Haven-də nümayiş olunmuşdu.

* Qiymətli daşların çoxu bir neçə elementdən meydana gələr, yalnız brilyant tamamilə karbondan meydana gələr.

* Ayı hər zaman şimala baxar.

* Telefonu icad edən Aleksandr Graham Bell, arvadı və anasıyla heç bir zaman telefonda danışa bilmədi. Çünki ikisidə doğuşdan kar idi.

* Amerikan hava yolları, uçuşlarda yolçulara təqdim etdiyi naharlarda hər nimçədən bir zeytunu qaldıraraq 1987-ci ildə 40 min dollar qazanc əldə etmişdir.

* 18 Fevral 1979-cu ildə səhra çölünə qar yağmışdı.

* Açıq bir gecədə, çılpaq gözlə iki min ayrı ulduzu görmək mümkündür.

* Bol su tuketerek söykənmə əlamətlərini gecikdirə bilərsiniz.

* Ağcaqanadların 9 ürəyi vardır. Gözlərində isə 8000 lupa var və saniyədə 100 görüntü qəbul edə bilər!

* Qatı yumurtanı parçalamadan kəsmək istəyirsinizsə, kəsmədən əvvəl bıçağı isti suyla isladın.

* Yediyiniz hər banan sizə 80 dəqiqə extra enerji bəxş edir.

* Dəvəquşları su axtardıqları üçün başlarını quma basdırırlar.

* İnglis dilində bütün hərflər 'the quick brown fox jumps over the lazy dog' cümləsində iştirak edir.

# Beyin qabığının incəlməsinin səbəbləri açıqlanıb



**Xoşagəlməz sosial və ekoloji şərtlər beyin sağlamlığını təhlükəyə atır. Oxu.Az xəbər verir ki, Ueyk-Forest Universiteti nəzdindəki Tibb Məktəbinin alimləri araşdırmalar nəticəsində belə qənaətə gəliblər. Tədqiqatın nəticələri "Alzheimer's & Dementia: Behavior & Socioeconomics of Aging" jurnalında dərc edilib.**

Alimlər "Healthy Brain Study" layihəsi çərçivəsində 679 iştirakçının məlumatlarını təhlil ediblər. Təcrübə iştirakçılarının beyni MRT ilə yoxlanılıb, Altsheymer xəstəliyi və demensiyanın digər formalarının erkən əlamətlərinin aşkarlanması üçün isə onlardan qan analizi götürülüb. Bu məlumatlar yoxsulluq səviyyəsi, havanın çirklənməsi və sosial həssaslıq göstəricilərini əks etdirən üç milli indekslə müqayisə olunub. Məlum olub ki, beyin strukturunda yaddaş və koqnitiv funksiyaların pisləşməsi ilə bağlı dəyişikliklər daha çox əlverişsiz bölgələrdə yaşayan iştirakçılarda müşahidə olunub. Beyin qabığının incəlməsi, ağ maddədə pozuntular və beyin qan dövranının pisləşməsi bu dəyişikliklər arasındadır.

Tədqiqat müəllifləri vurğulayırlar ki, təmiz hava, təhlükəsiz yaşayış yeri və sağlam qidalanma koqnitiv sağlamlığın qorunmasında böyük rol oynayır. Onların fikrincə, xroniki xəstəliklərə nəzarət və sağlam həyat tərzi ilə yanaşı, şəhər mühitinin yaxşılaşdırılması da demensiyanın profilaktikasının əsas amillərindən biridir.

# Çindən ABŞ-yə ağcaqanadlarla yayılan təhlükəli virus gətirilib



**Çindən ABŞ-yə ağcaqanad vasitəsilə çikunqunya qızdırması gətirilib. Oxu.Az xəbər verir ki, bu barədə Nyu-York ştatının səhiyyə komissarı Ceyms Makdonald istinadla "Daily Mail" yazıb.**

Hadisə Hempsteddə qeydə alınıb, 60 yaşlı qadın çikunqunya xəstəliyinə yoluxub. Qadının sözlərinə görə, o, ölkə hüdudlarından kənara çıxmayıb. Bildirilib ki, ağcaqanadlarla yayılan çikunqunya əl və ayaq oynaqlarında güclü ağrılar yaradır və bir neçə ay müddətinə iflic vəziyyətinə gətirib çıxara bilir. Qeyd edək ki, bu ilin əvvəlindən 16 ölkədə çikunqunyaya 317 mindən artıq yoluxma və 135 ölüm faktı qeydə alınıb.

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500